# Çağdaş TƏHSİL

Xüsusi buraxılış / Dekabr 2018 №02



# ANA YURDUM- AZƏRBAYCAN




**Təsisçi və baş redaktor:**
**Vüsal Kəlbəcərli**

**Redaktor:**
**Səbinə Zeynalova**

**Redaktorun müavini:**
**Azadə Möhübbətqızı**

***Jurnal redaksiyanın kompüter məkrəzində yığılmış, səhifələnmiş, çap olunmuşdur.***



***Ünvan: Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı II mərtəbə***



**Sayı: 500**



**Tel: (012) 408-91-92**
**(077) 632-22-86**



*Azərbaycan Respublikasının Dövlət gerbi*



*Azərbaycan Respublikasının Dövlət bayrağı*

## AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT HİMNİ

*Sözləri: Əhməd Cavadın,*

*Musiqisi: Üzeyir Hacıbəyovundur*

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üç rəngli bayrağınla məsud yaşa!

Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!



*Heydər Əliyev demişdir: "Əmin ola bilərsiniz biz çalışacağıq ki, vətəndaşların konstitutsiyadan irəli gələn hüquq və azadlıqları daimi təmin olunsun, qorunsun".*

*Ümummilli liderimiz Heydər Əliyev bütün ömrünün, həyatının ən dəyərli anlarını Respublikamızın çiçəklənməsinə həsr etmişdir. O, təhsilin, elmin inkişaf etdirilməsi məqsədi ilə bir çox yeni əmr və sərəncamlar verməklə müasir təhsil sisteminin əsasını qoymuşdur. Müəllimlərin əməyini yüksək qiymətləndirən dahi rəhbər müəllimlər haqqında yüksək fikirdə olmuşdur: "Müəllimlik çox şöhrətli bir sənətdir". Həqiqi müəllim olmaq cəmiyyət üçün doğrudan da çox qiymətlidir. Məhz müəllim doğma yurdumuzu sevməyi, hamının rifahı naminə vicdanlı işləməyi müdrikliklə, səbrlə bizə öyrətmiş və öyrədir.*

*Dahi rəhbər Respublikamız müstəqillik əldə etdikdən sonra müəllimlik fəaliyyətini daha da gücləndirmək üçün təhsil sahəsində əsaslı islahatlar aparmışdır.Müasir tariximizin ən parlaq şərəfli səhifəsi onun adı ilə bağlıdır. Heydər Əliyev təkcə tarixə doğan yox, həm də tarixi yazan, yaradan bir şəxsiyyətdir. Azərbaycan xalqı xoşbəxtdir ki, onun Heydər Əliyev kimi əməlləri ilə əbədi yaşamaq haqqı qazanan lideri var. Uzun illərin dövlətçilik təcrübəsi, yenilməzliyi, fədakarlığı, uzaqgörənliyi, xalqına olan məhəbbəti Heydər Əliyevə əlavə güc verirdi. Müstəqil dövlətimizə rəhbərlik edən Ümumilli Liderimiz Azərbaycanı dünyanın ən nüfuzlu, dinamik inkişafda olan ölkələr sırasına yüksəltdi. Bu gün Heydər Əliyevin yolu, siyasəti möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla xalqın maraqlarına, dövrün tələblərinə uyğun şəkildə davam və inkişaf etdirilir. Heydər Əliyev yolu ölkəmizin uzunmüddətli inkişafı, xalqımızın xoşbəxtlik simvoludur.*




Zərifə Əziz qızı Əliyeva (28 aprel 1923, İliç rayonu, Şahtaxtı, Naxçıvan MSSR, Azərbaycan SSR, SSRİ – 15 aprel 1985, Moskva) — Azərbaycan SSR-nın əməkdar elm xadimi, tibb elmləri doktoru, Azərbaycan Milli Elmlər Akademiyasının akademiki.

1947-ci ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunu bitirmişdir. Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda elmi işçi, 1969-cu ildən isə Ə.Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunda göz xəstəlikləri kafedrasının dosenti, professor, görmə orqanlarının peşə patologiyası laboratoriyasının müdiri, oftalmologiya kafedrasının müdiri (1982-1985) vəzifələrində çalışmışdır. Azərbaycan Elmlər Akademiyasının Fiziologiya İnstitutunda görmə orqanının peşə patologiyasının öyrənilməsi üzrə ixtisaslaşdırılmış elmi-tədqiqat laboratoriyasında az intensivli zəhərli istehsal sahələrində görmə orqanına fizioloji, klinik, funksional, histoloji mexanizmlərin təsirinin öyrənilməsi üzrə bir sıra qiymətli tədqiqatlar aparmışdır.

Həkimlər Tamerlan Əliyev, Cəmil Əliyevin və musiqiçi Gülarə Əliyevanın bacısıdır. Həkim Əziz Əliyevin qızıdır. Azərbaycan Respublikasının üçüncü Prezidenti Heydər Əliyevin həyat yoldaşıdır.

Azərbaycan Respublikasının dördüncü Prezidenti İlham Əliyevin anasıdır.

Z.Əliyevanın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri vardır. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların, o cümlədən "Terapevtik oftalmologiya", "İridodiaqnostikanın əsasları" kimi nadir elmi əsərlərin müəlliflərindən biri, 12 monoqrafiya, dərslik və dərs vəsaitinin, 150-yə yaxın elmi işin, 1 ixtira və 12 səmərələşdirici təklifin müəllifidir. Z.Əliyeva yüksək ixtisaslı səhiyyə kadrları hazırlanmasına böyük əmək sərf etmişdir.

Zərifə xanım Əliyevanın 80 illiyinə həsr edilmiş poçt markası

Akademik Zərifə Əliyeva Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, "Vestnik oftalmoloqu" (Moskva) jurnalı redaksiya heyətinin üzvü idi.

Yüksək elmi nailiyyətlərinə görə SSRİ Tibb Elmlər Akademiyasının M.İ.Averbax adına mükafatına layiq görülmüşdür (1981).

1985-ci il aprel ayının 15-də Moskva şəhərində vəfat edən Zərifə xanım Əliyevanın cənazəsi 1994-cü ildə Moskvanın Novo-Deviçye qəbiristanlığından Bakıya gətirilərək, Fəxri Xiyabanda, atasının qəbri yanında dəfn olunmuşdur.

Fəxri xiyabanda məzarı üstündə tuncdan heykəli ucaldılmışdır. Bakıda Göz xəstəlikləri İnstitutu, Naxçıvan şəhər poliklinikası onun adını daşıyır. Bakının Binəqədi rayonu ərazisində adına istirahət parkı salınmışdır. Bakı və Naxçıvanda küçə Zərifə Əliyevanın adını daşıyır.Bundan başqa Yasamal rayon ərazisində Zərifə Əliyevanın adını daşıyan lisey fəaliyyət göstərir.



# Əliyev İlham Heydər oğlu

Azərbaycanın son illərdə əldə etdiyi sosial-iqtisadi, mədəni nailiyyətlər faktlarla təsdiqlənən tarixi reallıqlardır. Dahi rəhbərimiz Heydər Əliyevin layiqli davamçısı olan İlham Əliyev Azərbaycan Respublikasının 24 noyabr 2003-cü il tarixli "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" və 2004-cü il 11 fevral tarixli "Azərbaycan Republikası regionların sosial-iqtisadi inkişafı (2004-2008-ci illər) Dövlət Proqramının təşkil edilməsi haqqında" fərmanlarında ölkə iqtisadiyyatında müşahidə olunan pozitiv inkişaf meylərinin sürətləndirilməsi, regionların tarazlıq, sabit və davamlı inkişafı, yeni istehsal müəssisələrinin açılması, yeniləşməsi, yeni iş yerlərinin yaradılması kimi vacib məqamlar öz əksini tapmışdır.

Ölkə başçısının onlarla müxtəlif sərəncamları hesabına elmdə də yeniliklər yaratmaqla yeni tipli məktəblərin açılması və təmirinə, müasir tələblərə cavab verən idman və olimpiada komplekslərinin tikilməsinə, alimə, müəllimə verilən qiymətlərin reallaşmasına səbəb olmuşdur.

Prezident İlham Əliyev fundamental əhəmiyyət kəsb edən bu dövlət proqramlarını icra vəziyyəti onların yeni imkanlar və tələblər baxımından nəzərdən keçirilib təhlil olunmasını, qarşıya qoyulan vəzifələrin tam həcmdə və vaxtında yerinə yetirməsini təmin etmək üçün sonrakı mərhələdə də bir sıra əlavə sərəncamlar imzalamışdır. Həmin sərəncamlarda sənayə və kənd təsərüfatı istehsalının, sosial və istehsal infrastruktur sahələrinin dinamik inkişafının enerji tələbatını ödəmək üçün alternativ enerji mənbələrindən istifadə olunması, enerji istehsalı və təchizatının əhəmiyyətli dərəcədə artırılması, investisiya qoyuluşu üçün daha əlverişli şəraitin yaradılması, daxili və xarici sərmayənin stimullaşdırılması, investisiya qoyuluşunun başlıca istiqamətinin regionların, qeyri-neft sektorunun inkişafına yönəldilməsi, maddiləşən işgüzar fəallığın gücləndirilməsi üçün konkret tədbirlər görülməsi nəzərdə tutulmuşdur.

Ulu öndərimizin layiqli davamçısı olan İlham Əliyev cənablarının tutduğu siyasi platforması Azərbaycanımızın günü-gündən çiçəklənməsinə və iqtisadiyyatının artmasına xidmət edir.

Ümummilli liderimiz H. Əliyev daim İ. Əliyev cənablarının layiqli bir rəhbər olacağına inanmış və bu inamını ictimaiyyətlə bölüşmüşdür:

- "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İ. Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".



# Əliyeva Mehriban Arif qızı

Azərbaycan dövlətçiliyi tarixində yaddaşlarımıza yazılan böyük şəxsiyyətlər çox olmuşdur. Onların içərisində xüsusi şücaətləri, qəhrəmanlıqları, siyasətdə öz dövlətçilik prinsipləri ilə fərqlənən igid, qorxmaz, mərd diplomat qadınlarmız da olmuşdur. Belə qadın siyasətçilərimizdən biri də, XXI əsrin novator xanımı Mehriban xanım Əliyevadır.

Heydər Əliyev Fondunun prezidenti, millət vəkili Mehriban xanım Əliyevanın təhsil sahəsinə, muğam irsimizin dünyada tanınmasına və yeni-yeni muğam mərkəzlərinin açılmasına göstərdiyi xidmətlər hər bir vətəndaşın ürəyincədir. İnşa edilən müasir məktəb binaları, mədəniyyət mərkəzləri bu dediklərimizin bariz nümunəsidir. Mehriban xanım bu gün həyata keçirdiyi missiyanın öhtəsindən layiqincə gəlir.

Mehriban xanım Əliyevanın atdığı addımlar, həyata keçirdiyi mədəni-ictimai tədbirlər xalqımızın, dövlətçiliyimizin möhkəmləndirilməsinə, Azərbaycanın dünya birliyində öz layiqli yerini tapmasına doğru istiqamətlənib.

Mehriban xanımın Azərbaycan dövləti, xalqı naminə gördüyü işlər bütün bunlarla məhdudlaşmır.

Ölkənin birinci xanımı Azərbaycan qadınlarının və milli mədəni irsimizin əsl əzabkeşi kimi tanınır. Bütün bunlar YUNESKO və İSESKO-nun Azərbaycandakı xoşməramlı səfiri adını alması Mehriban Əliyevanın türk qadınına xas olan keyfiyyətləri, bacarıq və qabiliyyətlərinin nümunəsidir.

Müxtəlif müasir meyarlara görə demək mümkündür ki, Heydər Əliyev davamçıları prezident İlham Əliyev və onun xanımı Mehriban Əliyeva Azərbaycan və Türk Dünyası tarixində öz yerlərini artıq müəyyənləşdirmişdirlər. Bizdən tələb olunan odur ki, onun gördüyü işləri bəzəyib-düzəmədən, obyektiv olaraq, əsl mahiyyətini və miqyasını dərk edərək xalqa, gələcək nəsillərə çatdıraq.

Mehriban Əliyevanın simasında bu qədim ənənə türk ruhuna sədaqət hissi ilə bağlıdır. O, Azərbaycan qadınlarının Avropa ölkələrində layiqincə təmsil edir. Öz əməlləri və gördüyü işləri ilə Azərbaycan qadının mübariz olduğunu nümayiş etdirir.

# Ceyhun Əziz oğlu Bayramov



## "Diplom alan hər kəs öz biliyini sübut etməlidir"

1973-cü ildə Bakı şəhərində anadan olub. 1990-cı ildə orta məktəbi gümüş medalla bitirib. Həmin il Azərbaycan Dövlət İqtisad İnstitutuna qəbul olunub. Bu ali məktəbi iqtisadçı ixtisası üzrə fərqlənmə diplomu ilə, Azərbaycan Universitetini hüquqşünaslıq ixtisası üzrə bitirib.

1996-2000-ci illərdə Vergilər Nazirliyində müxtəlif vəzifələrdə çalışıb, 2000-2002-ci illərdə "Salans Hertzfeld & Heilbronn (Baku) Limited" şirkətində hüquqşünas, 2002-2013-cü illərdə isə "OMNİ" hüquq şirkətinin direktoru olub.

2004-2012-ci illərdə dünyanın aparıcı hüquq nəşrlərindən olan "Chambers Global", "IFLR1000" və "Legal500" tərəfindən hər il Azərbaycanda vergiqoyma və mülki hüquq sahəsində aparıcı hüquqşünaslar siyahısına daxil edilib.

2013-cü il mayın 30-dan avqustun 12-dək Təhsil Nazirliyi Aparatının rəhbəri vəzifəsində çalışıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 12 avqust 2013-cü il tarixli sərəncamı ilə təhsil nazirinin müavini təyin olunub.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 23 aprel 2018-ci il tarixli sərəncamı ilə təhsil naziri təyin olunub.

Evlidir, 2 övladı var.



# *Həyatda yaşayan*
# Milli Qəhrəmanlarımız

Ölkəmizdə Milli Qəhrəman adı verilmiş şəxslərin sayı 215 nəfərdir. Onlardan yalnız 17 nəfəri sağdır. Milli Qəhrəman adı almış şəxslərin bəziləri hazırda ordu sıralarında və hüquq-mühafizə orqanlarında xidmət edir.

Qeyd edək ki, Azərbaycanın Milli Qəhrəmanı adı respublikanın ən yüksək fərqlənmə dərəcəsidir, ölkənin müstəqilliyi və tərəqqisi naminə xalq qarşısında müstəsna xidmətlərə və rəşadətə görə verilir.

Milli Qəhrəman adı Azərbaycan Respublikasının Prezidenti tərəfindən onun öz təşəbbüsü ilə və ya irəli sürülmüş vəsatətlərə əsasən verilir. Azərbaycanın Milli Qəhrəmanına xüsusi fərqlənmə nişanı - səkkizguşəli "Qızıl Ulduz" medalı təqdim edilir. Bu ad eyni şəxsə bir dəfə verilir.

Azərbaycanın Milli Qəhrəmanı qanunvericiliklə müəyyənləşdirilmiş güzəştlərdən istifadə edir. Bu adı almış şəxslər həmin addan yalnız Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada məhrum edilə bilərlər.

Həyatda yaşayan Milli Qəhrəmanların siyahısını təqdim edirik:

Abdullayev Maşallah Babakişi oğlu
Allahverdiyev Bəxtiyar Əzizulla oğlu
Atakişiyev İntiqam Vahid oğlu
Cəbrayılov Fəxrəddin Mövsüm oğlu
Həsənov Məhəmməd Ələsgər oğlu
Mədətov Farfiz Əlövsət oğlu
Məmmədov Mövsüm Şahin oğlu
Məmmədov Sahil Ələmdar oğlu
Quliyev Mirzə Məcid oğlu
Quliyev Mədət Qəzənfər oğlu
Quliyev Vahid Həbibulla oğlu
Quliyev Zabit Adil oğlu
Qəhrəmanov Fariz Çoban oğlu
Tağıyev Şahin Talıb oğlu
Əkbərov Rövşən Telman oğlu
Əliyev Ehtiram İsrayıl oğlu
Həmidov Şükür Nəriman oğlu



# Əfsanəvi qəhrəman Mübariz İbrahimov:

## “Şəhid olsam ağlamayın, əksinə, sevinin ki, o mərtəbəyə yüksəldim”.

Mübariz İbrahimov 1988-ci il fevralın 7-si Biləsuvarın Əliabad kəndində anadan olub.

1994-cü il şəhid M.Piriyev adına Əliabad kənd orta məktəbinin 1-ci sinfinə daxil olaraq 2005-ci ildə orada orta təhsilini başa vurub.

Həmin il həqiqi hərbi xidmətə çağırılıb. Əsgəri xidmətini Daxili Qoşunların “N” saylı hərbi hissəsinin Xüsusi Təyinatlı Bölüyündə keçirib. Həqiqi hərbi xidmətini 2007-ci ildə çavuş rütbəsində başa vurub.

Bir müddət mülki işlərdə işlədikdən sonra 2009-cu ilin avqust ayında yenidən gizir rütbəsində hərbi xidmətdə çalışmağa başlayıb. Bir müddət sonra öz arzusu ilə cəbhə bölgəsindəki hərbi hissələrdən birində xidmət etməyə başlayıb.

Təsdiq edilməmiş versiyalara görə, 19 iyun 2010-cu il tarixində gecə saat 23:30 radələrində gizir Mübariz İbrahimov təkbaşına iki ordu arasındakı bir kilometrlik minalanmış sahəni keçir. Ermənistan silahlı qüvvələrinin çox sayda əsgər və zabitini gözlənilməz birinci həmlədə məhv edir. Sonra isə düşmənin öz silahlarını özünə qarşı istifadə edərək 5 saat onlarla təkbətək döyüşür. Düşməni ağır itkilərə məruz qoyur, onların zəif cinahlarını üzə çıxarır. Azərbaycan döyüşçüsü səhər saatlarında döyüşdə qəhrəmancasına həlak olur.

Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan Milli Ordusunun giziri Mübariz Ağakərim oğlu İbrahimova “Azərbaycanın Milli Qəhrəmanı” adının (ölümündən sonra) verilməsi barədə sərəncam imzalayıb. Şəhid gizirə bu ad Azərbaycan Respublikasının müstəqilliyinin və ərazi bütövlüyünün qorunub saxlanılmasında müstəsna xidmətinə və göstərdiyi rəşadətə görə verilib.

Azərbaycan Respublikasının, Ermənistan Respublikasının və Rusiya Federasiyası Prezidentlərinin Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair 27 oktyabr 2010-cu il tarixli birgə bəyanatına uyğun olaraq, eyni zamanda, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının beynəlxalq təşkilatlarla apardığı müntəzəm və səmərəli danışıqların nəticəsində, Azərbaycan Respublikasının Tərtər rayonu istiqamətində Ermənistan hərbçilərinin hücumunu dəf edərkən 18 iyun 2010-cu il tarixdə şəhid olmuş Azərbaycan hərbçi İbrahimov Mübariz Ağakərim oğlunun meyiti 6 noyabr 2010-cu il tarixdə qarşı tərəfdən alınıb. Proses Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası və Müdafiə Nazirliyi əməkdaşlarının iştirakı, Beynəlxalq Qızıl Xaç Komitəsinin vasitəçiliyi ilə həyata keçirilib.

Bir gün sonra, noyabrın 7-də şəhid qəhrəman İkinci Fəxri xiyabanda dəfn olunub.

2010-cu il noyabrın 11-də Təzəpir məscidində prezident İlham Əliyevin adından şəhid hərbçilər – Milli Qəhrəman Mübariz İbrahimov və “İgidliyə görə” medalıyla təltif olunmuş baş leytenant Fərid Əhmədovun xatirəsinə ehsan mərasimi keçirilib.

*Mübarizin son məktubu:*

“Canım atam və anam. Məndən sarı darıxmayın. İnşallah, cənnətdə görüşəcəyik. Mənim üçün bol-bol dua edin. Vətənin dar günündə artıq ürəyim dözmür. Allaha xatir bunu etməliyəm. Ən azından ürəyim sərinlik tapar. Şəhid olanadək bu şərəfsizlərin üzərinə gedəcəyəm. Şəhid olsam – ağlamayın. Əksinə, sevinin ki, o mərtəbəyə yüksəldim. Allaha ibadətlərinizi dəqiq yerinə yetirin. Çoxlu sədəqə verin. Seyid nəvəsi olaraq bunu etməliyəm. Allah böyükdür. Vətən sağ olsun. Oğlunuz Mübariz. Haqqınızı halal edin”.

# Ağayev Məhəmmədsəid

***Elm hüdudsuz bir okeandır; mən və bəzi dostlarım bu okeandan bir neçə damlanı içmək fürsətini əldən vermədik.***

***İsaak Nyuton***





Bəli, təhsil bizim gələcəyimizdir, ölkəmizi dünyaya tanıtmaq üçün bilik, savaddır. Müasir dünyada hər bir ölkənin gələcəyi həmin ölkədə təhsilin səviyyəsi ilə ölçülür. Təhsilin inkişafı hər bir ölkədə inkişaf konsepsiyasının mühüm tərkib hissəsidir.Həyatın axarı, dünyanın gəliş-gedişi göstərir ki, adamlar müxtəlif cür müdrikləşirlər. Çoxları altmış-yetmişi keçib topladığı həyat təcrübəsi və saç-saqqalının ağlığı hesabına özlərini ömrün müdriklik çağında sayırlar. Ancaq elə adamlar da var ki, onlar yaşın, saç-saqqalın gətirəcəyi səlahiyyəti gözləmədən ömrünün çox erkən çağlarından müdriklik statusu qazanır, bu nurlu mərtəbəyə öz ləyaqət və davranışları ilə xeyli öncədən yüksələ bilirlər. Bu gənclərimizdən biri də Məhəmmədsəiddir.

Ağayev Məhəmmədsəid Abdullah oğlu 2009-cu ildə paytaxt şəhərimiz olan Bakıda anadan olmuşdur. Təhsil həyatına 2014-cü ildə başlamış və Malıbəyli kənd 1 saylı Şuşa məktəbinin 1-ci sinifinə getmişdir. Onun ən sevdiyi fənn Riyaziyyat, ən çox sevdiyi müəllimələri isə sinif rəhbəri olan Samirə müəllimə və bütün fənlərində ona köməklik göstərən Xarici dil müəlliməsi Babışova Pərvanə müəllimədir. Hər zaman dərslərinə hazırlıqlı gələn, məsuliyyətli yanaşan Məhəmmədsəid müəllimlərinin də sevimli şagirdi olmağı bacarmışdır. Məktəbdə keçirilən tədbirlərdə də fəal iştirak etmişdir. Onun gözəl şeir demə qabiliyyəti vardır. Bununla bərabər onun musiqi bəstələmək fantaziyası da vardır. O, boş zamanlarını yaşıdlarından fərqli olaraq daha sərfəli dəyərləndirir, kitablar oxuyur, bədii təfəkkürünü inkişaf etdirir.

Atası Ağayev Abdula şəxsi biznesdədir. Anası Ağayeva Cəmilə evdar xanımdır. Məhəmmədsəidi 6 ayından nənəsi Ağayeva Qənaət Həsənqulu qızı böyüdüb.

Məhəmmədsəid yaşının az olmasına baxmayaraq qarşısına böyük məqsədlər qoymuşdur və bu məqsədlərinə nail olmaq üçün çox çalışıb, əlindən gələni edir. O, şəxsi biznesini qurmaq, öz şirkətini idarə etmək arzusundadır. Biz də ümid edirik ki, Məhəmmədsəid balamız bu məqsədlərinə uğurla və müvəffəqiyyətlə nail olar.

# Kənan Əhmədzadə

*Elm hüdudsuz bir okeandır; mən və bəzi dostlarım bu okeandan bir neçə damlanı içmək fürsətini əldən vermədik.*
*İsaak Nyuton*



Elmin insan həyatının çiçəklənməsində müstəsna rolu vardır. Elmi nailiyyətlər nəticəsində bəşər həyatı daha da gözəlləşməyə doğru irəliləməkdədir. Elm zülmətdən işıqlığa və səadət nuruna yetişməkdə bəlkə də yeganə vasitədir. Hər bir cəmiyyətin həyat səviyyəsinin yüksəlişi, tərəqqisi həmin toplumda elmin inkişafından, elmə marağın hansı səviyyədə olmasından və daha çox elmlə bağlı ünsürlərin həmin cəmiyyətin olub-olmamasından aslıdır. Cəhalət və savadsızlığın hakim olduğu bir təbəqə və cəmiyyət sonunda süquta məhkumdur. Bizim gələcəyimiz savavdlı və bacarıqlı gənclərimizdən aslıdır. Onlardan biri də Əhmədzadə Kənandır.

Əhmədzadə Kənan 5 aprel 2009-cu ildə Ağcabədi rayonunda anadan olub. 2014-cü ildə Zəngilan rayonu 32 nömrəli tam orta məktəbin 1-ci sinifinə qədəm qoyub. Hal-hazırda isə elə həmin məktəbin 6-cı sinif şagirdidir. O, məktəbə gəldiyi elə ilk gündən öz müəllimlərinin sevimlisinə çevrilməyi və onların hörmətini qazanmağı bacarmışdır. Kənan çox çalışqan və məsuliyyətlə biridir. O, bütün fənlərdən yaxşı qiymətlər alır. Ən çox sevdiyi fənn Riyaziyyat və İngilis dili fənnidir. Kənan ona dərs deyən bütün müəllimlərini çox sevdiyini deyir, onlara böyük hörmət bəslədiyini vurğulayır. Bu sırada Zəhra müəllimə, Səidə müəllimə, Arzu müəllimə və Bahar müəlliməni xüsusi olaraq qeyd edir. Kənan dərs ilini əla qiymətlərlə bitirdiyi üçün dəfələrlə fəxri fərmanlarla təltif olunub. Kənan boş vaxtlarını isə  kitab oxumaqla dəyərləndirir və əlavə məlumat almaq, bilik əldə etmək ona çox maraqlı gəlir.  O, gələcəkdə polis olmaq istəyir.  Xalqının, millətinin keşiyində cəsur və mərd şəkildə durmağı özünə məqsəd seçmişdir. Ailəsi 4-nəfərdən ibarətdir.

Atası- Əhmədov Ramiz Şükür oğlu.

Anası- Əhmədova Vüsalə Nağı qızı. İşləmir.

Qardaşı- Əhmədov Şükür Ramiz oğlu. Məktəblidir.2-ci sinif şagirdidir.

Müəllimlərinin sevgisini və hörmətini qazanan Kənan uğurlarının davamlı olmasını və ali məktəbə daxil olmaqla müəllimlərinin adını daha da ucaltmasını diləyirik.

# Ehtiram Qurbanov

*Dünya artıq əmək tutumlu, xammal tutumlu, enerji tutumlu deyil, bilik tutumlu olmaqdadır.*
*Piter Druker*





Bilikli insan hərtərəfli olduğu üçün hər hansı bir çətin vəziyyətdən çox asanlıqla çıxa bilir. Belə insanlar ziyalılığın göstəricisi kimi güclü ünsiyyət bacarığına da yiyələnmiş olur. Belə ki, dili, ünsiyyəti güclü olan insan malik olduğu bilik və bacarığını daha rahat, başa düşüləcək tərzdə ifadə etmək qabilliyətindədir. Budur ziyalılıq.

Elmin mənbəyi evimizdən, bağçadan və məktəbdən başlanır. Elm öyrənmək böyük zəhmət, qabiliyyət və zaman tələb edir. Bu işdə bilikli, dünyagörüşlü, milli dəyərlərimizi ifadə edən müasir texnikaya, onun nailiyyətlərinə yiyələnmiş vətənpərvər, fədakar müəllimlərimiz böyük rol oynayır. Bunu dərk edib, elmə yiyələnməyə can atan şagirdlərimizdən biri də Qurbanov Ehtiramdır.

Qurbanov Ehtiram Etibar oğlu 26 oktyabr 2001- ci ildə Sumqayıt şəhərində anadan olub. 2008- ci ildə Qubadlı rayonunun Mehman Ağayarov adına Kavdadı kənd tam orta məktəbin 1-ci sinifinə qədəm qoyub. Hazırda elə həmin məktəbin 11-ci sinif şagirdidir. Ehtiram çox məsuliyyətli və çalışqan şagirddir. O, bütün fənlərdən yaxşı qiymətlər alır. Ən çox sevdiyi fənn isə Tarix, Riyaziyyat, Azərbaycan dili və Ədəbiyyat fənləridir. Məleykə müəllimə, Ziyafət müəllimə və Aynurə müəllimə onun sevdiyi müəllimələrdir, xüsusilə Təhminə müəllimə onun ən sevimli müəlliməsidir. Ehtiram öyrəndiyi bütün elm və biliklərə görə Təhminə müəlliməyə minnətdardır. O, qeyd edir ki, Təhminə müəllimənin onun üzərində çox əziyyəti olmuşdur. Ona qayğı ilə yanaşan savadlı bir gənc kimi yetişməsi üçün əlindən gələni edən Təhminə müəllimənin əziyyətlərini boşa çıxarmayacağını və ona daima fəxr hissi yaşadacağını söyləyir. Ehiram dərs ilini əla qiymətlərlə bitirdiyi üçün 3 dəfə fəxri fərman, 1 dəfə təltifnamə almış və `Debat natiqlik` turnirində kamanda şəklində 3-cü yer tutmuşdur. Dərslərindən əlavə isə idmana böyük həvəs göstərir. O, güləş üzrə Sumqayıt şəhərində 1- ci yer tutmuşdur. Ehtiram boş vaxtlarında bədii kitab və Azərbaycan Respublikasının Konstitusiya kitabını oxumağı və futbol izləməyi çox sevir.O, gələcəkdə hüquqşunas olmaq arzusundadır. Ailəsi 5 nəfərdən ibarətdir. Atası- Qurbanov Etibar 26 dekabr 1972-ci ildə anadan olub. Özəl işlə məşğuldur. Anası- Qurbanov Vüsalə 10 iyun 1982-ci ildə anadan olub. İşləmir. Qardaşı- Qurbanov İntiqam 2 fevral 2003-cü ildə anadan olub. Məktəblidir. 10-cu sinif şagirdi. Qurbanov Balaş 18 oktyabr 2005-ci ildə anadan olub. Məktəblidir. 7-ci sinif şagirdi. Bizdə jurnalımız adından Ehtirama həyat yolunda bol-bol uğurlar arzu edirik. Səsin yüksəklərdən gəlsin!

# Fərid Əlizadə

*Nadanlar elmə həqarətlə baxır, savadsızlar ona heyran olur,*
*müdriklər isə ondan bəhrələnirlər.*
*Frensis Bekon*





Biz elmi-texniki tərəqqinin çox vüsət alıb tüğyan etdiyi bir əsrdə yaşayırıq. Bu belə bir əsrdir ki, cəmiyyətimizin onun iqtisadi, mədəni, mənəvi inkişafı elm və biliklə xarakterizə olunur.

Təhsil və bilik insan həyatında aparıcı rol oynayan ən vacib amillərdəndir. Belə ki, bilik insanın güclü, qüdrətli, müdrik bir şəxsiyyət kimi yetişməsində bir vasitədir. Elm, təhsil eyni zamanda dünya və aləmi, onun əsrarəngiz çalarlarını dərk edib duymaq üçün bir vasitədir. Belə ki, bizi əhatə edən aləm elmin, təhsilin və müasir texnikanın uğurlu nailiyyətlərinə əsaslanır.

Bunlar bizi əhatə edən, bizim gündəlik istifadə edib bəhrələndiyimiz - televizor, kompüter, radio və müxtəlif adda olan saysız-hesabsız elektrik avadanlıqlardır.

Elmsiz, təhsilsiz bir insan yolunu azmış kor bir səyyaha bənzər ki, kiçik bir çuxur onu məhv edər.

Elm və bilik insan həyatını mənalandıran, onu zənginləşdirən işıqlı bir yoldur. Odur ki, həyat və güzəranımızı daha mənalı etmək, səmərəli yaşamaq üçün daha çox təhsilə, savada yiyələnməliyik. Təhsil həyatına hələ ilk addımlarını atan Fərid də bizim gələcəyimizin savadlı, bacarıqlı gənclərindən biri hesab olunur.

Əlizadə Fərid Firdovsi oğlu iyunun 19-u 2010-ci ildə anadan olmuşdur. O, təhsil həyatına ilk qədəmlərini 2016-cı ildə qoymuş, 297 nömrəli məktəbin birinci sinifində təhsil almağa başlamışdır. Hal-hazırda o, həmin məktəbin 3-cü sinifində oxuyur. Məktəbə başladığı ilk gündən istər savadı, istərsə də tərbiyəsi ilə hamının hörmətini qazanmışdır. O, dərslərini həmişə yaxşı oxuyur və hər zaman dərsə hazırlıqlı gəlir. Öz savadını təkcə məktəbdə deyil, məktəb xaricində keçirilən kurslarda da göstərmişdir. O, Zəfər kursunda keçirilən bilik yarışında iştirak edib. Boş zamanlarını da dərsləriylə məşğul olmaqla dəyərləndirən Fərid asudə vaxtında testlər işləyir.

Atası Əliyev Firdovsi Avrora şirkətində işləyir. Anası Əliyeva Günay ali təhsillidir. O, müəllimədir, lakin hal-hazırda işləmir, evdar xanımdır. Qardaşları Əliyev İlhamın 4 yaşı var, Əlizadə Şahin isə 1-ci sinif şagirdidir.

Fərid böyüyəndə həkim olmaq istəyir. Xəstə, köməyə möhtac insanlara şəfa vermək, dərdlərinə çarə tapmaq kimi çox dərin düşüncələri olan Fərid balamızı bu şərəfli peşəni seçdiyinə görə təbrik edirik. Arzu edirik ki, gələcəyin tanınmış, savadlı həkimlərindən biri olar. Yolun daima açıq olsun!

# Hacıyeva Gültac

*Dünyada nə qədər kitab var belə,*
*Çalışıb, əlləşib gətirdim ələ.*
*Oxudum, oxudum, sonrada vardım,*
*Hər gizli xəznədən bir dürr çıxardım.*

*Nizami Gəncəvi*



Şəhidin qanı-cəmiyyətin nəfəs verən, cəmiyyəti diriIdən bir təbərrükdür. Amma İslam dini alimin mürəkkəbini şəhidin qanından üstün tutmuşdur. Dinimizi elimin zəhmətini cəmiyyətin həyatında, müqəddəratında taleyüklü dəyişikliklərə rəvac verən bir amil kimi qəbul edir.

Alimin formalaşdırılmasında bütün mütərrəqi dünya, bilavasitə və ya dolayısı ilə iştirak edir. Bəşərin bütün nəcib zəkası əməl edən alimin bilgilərinin, əxlaqının, ruhi-mənəvi durumunun yetkinləşməsində rol oynayır. Alim bütöv bir kamillik dünyasıdır və dinimizi onun itkisinin əvəzsizliyinə diqqət çəkir. Necə ki, bir aləm, bir dünya məhv olsa, onu bərpa etmək mümkünsüzdür. Bərpa olunan nəsə təzə bir şeydir, heç zaman əvvəlkinin yerini verməz, eləcə də yeni gələn alim öz yerinə gəlir, öncəki alimin yerini zatən doldura bilməz. Daha üstün və ya daha da az bilgilərə malik olada bilər, müxtəlif dərəcələrə yetişədə bilər, amma o biri alimin yerini tuta bilməz. Burada bu dəyərlərini gələcəkdə qoruyub saxlayacaq gənclərimizdən biri də Hacıyeva Gültacdır.

Hacıyeva Gültac Tural qızı 2007- ci ildə Naxçıvan şəhəri, Kəngərli rayonunda anadan olub. 2013- cü ildə Ağdam rayonunun 33 saylı tam orta məktəbin 1-ci sinifinə qədəm qoyub. Hazırda həmin məktəbin 6-cı sinif şagirdidir. Məktəbə daxil olduğu gündən öz fəallığı və çalışqanlığı ilə seçilən şagirdlərdən biri olmuşdur. Tədris edilən bütün fənlərin özünəməxsus əhəmiyyətini nəzərə alaraq onların hər birinə diqqət ayıran Gültac Azərbaycan-dili, Riyaziyyat, Coğrafiya, İngilis-dili və Biologiya fənlərini çox sevir. Gültac xüsusilədə Fransız dilini yaxşı bildiyi üçün diplomla mükafatlandırılmışdır. Ən sevdiyi müəllimlər isə Azadə müəllimə, Gülnar müəllimə, Sevda müəllimə, Lamiyə müəllimə və Gülnarə müəllimədir. O, dərslərindən əlavə boş vaxtlarında hekayələr oxumağı çox sevir. Ailəsi 4 nəfərdən ibarətdir.

Atası- Hacıyev Tural Hüseyin oğlu. Ticarətlə məşğuldur.

Anası- Hacıyeva Şəhrəbanu Yusif qızı. İşləmir.

Qardaşı- Hacıyev Hüseyin Tural oğlu. Məktəblidir. 4-cü sinif şagirdidir.

Biz də öz jurnalımız adından Gültaca müvəffəqiyyətlər arzulayırıq. Səsin ucalardan gəlsin!

# Hüseynli Hüseyn

*Bilməməkdən qorxma, səhv bilməkdən qorx. Çünki bütün fəlakətlər ona görə baş verir.*

*Lev Nikolayeviç Tolstoy*



Bir xalq yalnız savadlı cəmiyyəti, inkişaf etmiş elmi ilə qürur duya bilər. Yalnız savadlı cəmiyyətlə irəli getmək, uğurlara nail olmaq, ölkəni tanıtmaq mümkündür. Elmin vacibliyini hələ qədim zamanlardan dərk ediblər. Ta qədim zamanlardan elmdə nailiyyətlər əldə etmək üçün çalışıblar. Təbiəti öyrənib, bununla cəmiyyəti məlumatlandırmağa səy göstəriblər. Qədim zamanlara nisbətən, elmin inkişafı müasir şəraitdə daha asandır. Elmi nailiyyətlər nəticəsində kompüter erasına qədəm qoymuşuq. Azərbaycanda da bu kimi texnoloji yeniliklərin tətbiqi təhsilin inkişafına gətirib çıxarır. Bunların hamısı gələcəyimiz, yəni gənclərimiz üçündür, onların yüksək səviyyədə təhsil alması üçündür. Bu gənclərimizdən biri də Hüseyndir.

Hüseynli Hüseyn Nizami oğlu 2009-cu ildə Bakı şəhərində dünyaya gözlərini açıb. 2015-ci ildə birinci sinifə gedən Hüseyn təhsilinə Xocavənd rayon Nərimanlı kənd tam orta məktəbində başlamışdır. O, hal-hazırda həmin məktəbin 4-cü sinifində oxumaqdadır. Bütün müəllimlərini sevən və onlara hörmət edən Hüseyn hər zaman dərslərinə hazırlıqlı gəlir. O, sinifinin ən savadlı, ən fəal əlaçı şagirdlərindən biridir. Onun ən çox sevdiyi fənn Həyat bilgisidir.

Ailəsi 4 nəfərdən ibarətdir: atası Hüseynov Nizami satıcı, anası Əliyeva Sevda evdar xanımdır. Qardaşı Hüseynli Yusifin 7 yaşı var və birinci sinifdə oxuyur.

Hüseyn boş zamanlarında şəkil çəkməyi və qardaşıyla oynamağı çox sevir. O, böyüyəndə polis olmaq istəyir. Arzu edirik ki, Hüseyn balamız məktəbi bitirib, tələbə adını qazanar və gələcəyin savadlı kadrlarından biri olar. Uğurların bol olsun!

# İsgəndərli Emin

*Bir elm öyrənmək istədikdə sən*
*Çalış ki, hər şeyi kamil biləsən.*
*Kamil bir palançı olsa da insan,*
*Yaxşıdır yarımçıq papaqçılıqdan.*

*Nizami Gəncəvi*



Yer üzərində ən ali varlıq insandır. İnsanda isə ən qiymətli sərvət ağıl, bilik və elmdir. Məhz bu amillər insanı püxtələşdirir və kamilləşdirir. Savadlı və bilikli insan daima yaxşı ad qazanmağa və özündən sonraki gələcək nəsillərə xeyirli bir iz qoymağa çalışır. Elmin gücüylə istənilən qapını açmaq mümkündür. İndi biz elə gənc yaşlarından var gücü ilə elm, savad sahibi olmağa çalışan Emindən bəhs edək.

İsgəndərli Emin Əhməd oğlu 17 mart 2006-cı ildə Goranboy rayonunda anadan olub. 2012-ci ildə 69 saylı tam orta məktəbin 1-ci sinifinə qədəm qoyub. Hal-hazırda elə həmin məktəbin 8-ci sinif şagirdidir. Emin məktəbin ən fəal və yaxşı oxuyan şagirdlərdən biridir. Emin müəllimlərini çox sevdiyini və onlara böyük hörmət bəslədiyini deyir. Tədris edilən bütün fənlərin özünə məxsus əhəmiyyətini nəzərə alaraq onların hər birinə diqqət ayıran Emin Riyaziyyat, Az-dili, Tarix, Coğrafiya, Xarici-dil, Biologiya , Kimya və Fizika fənlərini daha çox sevir. Emin dərslərindən əlavə idmanlada məşğul olur və bununlada öz sağlamlığının qeydinə qalır.Güləş sahəsində onun bir çox nailiyyətləri vardır. Boş vaxtlarında isə dərs oxumağı çox sevir. Emin gələcəkdə ali məktəbə qəbul olub , Tibb universitetinin tələbəsi olmaq arzusundadır. Ailəsi 4 nəfərdən ibarətdir.

Atası- İsgəndərov Əhməd Talıb oğlu.

Anası- İsgəndərova Zəminə. İşləmir.

Qardaşı- İsgəndərli Amin. Məktəblidir. 4-cü sinif şagirdidir.

Biz də ğz jurnalımız adından İsgəndərli Eminə uğurlar və müvəffəqiyyətlər arzu edirik. Yolun açıq olsun!

# Manaflı Kamran

*Elmlər insan ruhunun gözünü təmizləyir və yenidən açır. Ruhun gözü min dənə adi gözdən önəmlidir, çünki ancaq onun köməyi ilə həqiqəti görmək mümkündür.*

*Platon*




Bilikli insan hərtərəfli olduğu üçün hər hansı bir çətin vəziyyətdən çox asanlıqla çıxa bilir. Belə insanlar ziyalılığın göstəricisi kimi güclü ünsiyyət bacarığına da yiyələnmiş olur. Belə ki, dili, ünsiyyəti güclü olan insan malik olduğu bilik və bacarığını daha rahat, başa düşüləcək tərzdə ifadə etmək qabiliyyətindədir. Budur ziyalılıq.

Elmin mənbəyi evimizdən, bağçadan və məktəbdən başlanır. Elm öyrənmək böyük zəhmət, qabiliyyət və zaman tələb edir. Bu işdə bilikli, dünyagörüşlü, milli dəyərlərimizi ifadə edən müasir texnikaya, onun nailiyyətlərinə yiyələnmiş vətənpərvər, fədakar müəllimlərimiz böyük rol oynayır. Bunu dərk edib, elmə yiyələnməyə can atan şagirdlərimizdən biri də Manaflı Kamrandır.

Manaflı Kamran Bəhruz oğlu 2007-ci il oktyabrın 9-cu paytaxt şəhərimiz Bakıda anadan olub. Təhsil həyatına ilk qədəmlərini 2013-cü ildə atmış və E.Əliyev adına 297 nömrəli tam orta məktəbin birinci sinifinə getmişdir. Hal-hazırda həmin məktəbin 6-cı sinifində oxuyur. O, çox məsuliiyətli və ağıllı uşaqdır. Ən sevdiyi fənn Riyaziyyat və Tarix, ən sevdiyi müəllimələri isə bu fənləri ona sevdirən Şəfəq müəllimə və Könül müəllimədir. Kamran dərsləri ilə məşğul olduğu qədər idmanla da məşğul olur. Onun bu sadəcə bir çox uğur və nailiyyətləri də vardır. Yaşıdları arasında “Güləş” yarışlarında keçirilən müxtəlif yarışlarında 1-ci, 2-ci və 3-cü yerləri tutmuşdur.

Atası Manafov Bəhruz Alı oğlu Rabitə texnikumunu bitirib, tikinti şirkətində montajcı işləyir. E.Əliyev adına 297 nömrəli tam orta məktəbdə ibtidai sinif müəlliməsidir. İki qardaşı var, Manaflı Kənan 7-ci sinif, Manaflı Ayxan 3-cü sinif şagirdidir.

Kamran boş zamanlarında şəkil çəkməyi, müxtəlif materiallardan əşyalar hazırlamağı, internetdə oyunlar oynamağı çox sevir. O, gələcəkdə polis rəisi olmağı, xalqına və millətinə məsuliyyətlə, şərəflə xidmət etməyi arzulayır. Biz də ümid edirik ki, Kamran balamız bu istəyinə nail olmaq üçün çox çalışar və gələcəyin igid, cəsur polislərindən biri olar.

# Manaflı Kənan

*O adam ki, bilir və biliyi ilə başqalarını heyran edir, o, alimdir, ona ehtiram edin.*
*O adam ki, bilir və biliyinə güvənmir, o, özündən xəbərsizdir, onu tənqid edin.*
*O adam ki, bilmir və öyrənməyə cəhd edir, o, zəhməkeşdir, ona kömək edin.*
*O adam ki, bilmir və öyrənmək də istəmir, o ağılsızdır, ondan uzaq olun.*

*N.Tusi*



Elm həqiqəti öyrənir, həyatın qanunauyğunluqlarını, təbiətin sirlərini bir-birinin ardınca kəşf edir. Elmlə məşğul olmaq isə gözəlliyin sorağında gəzmək, onu kəşf etmək deməkdir. Çünki həqiqət gözəllikdən, gözəllik isə həqiqətdən fərqli deyildir. Gözəllik duyğusu varlığın inikası, mövcud həqiqətin idrakıdır. İnsan bütün varlığı ilə gözəlliyə can atır və deməli, həqiq gözəlliyi duymaq, dərk etmək üçün elm öyrənmək vacibdir. Elm həm də dünyagörüşüdür, insanı yüksəldən mənəvi ucalıqdır. İnsan yalnız elmi, bacarığı ilə başqalarından fərqlənə, onlara nisbətən üstün mövqeyə malik ola bilər.

Müasir dövrümüz yüksək texnika dövrü, yüksək sivilizasiya dövrüdür. Bu dövrdə yüksək elmi səviyyə, dərin bilik tələb olunur. Elm və bilik isə yalnız oxumaqla, öyrənməklə əldə edilir. Kənan da müasir dövrümüzün elm və biliklərə yiyələnməyə həvəs göstərən şagirdlərimizdən biridir.

Manaflı Kənan Bəhruz oğlu 22 mart 2006-cı ildə Bakı şəhərində dünyaya gözlərini açmışdır. Birinci sinifə ilk dəfə 2012-ci ildə gedən Kənan E.Əliyev adına 297 nömrəli tam orta məktəbdə təhsil almağa başlamışdır. O, indi də həmin məktəbin 7-ci sinifində öz təhsilini davam etdirir. Dərsləri yaxşı oxuyan Kənan qısa zamanda həm müəllimlərinin, həm də sinif yoldaşlarının hörmətini qazanmışdır. Onun ən sevdiyi fənlər Azərbaycan dili və Ədəbiyyatdır. Ən sevimli müəllimələri isə Arzu müəllimə və Sevda müəllimədir.

Kənanın gözəl rəqs etmə qabilliyəti vardır. O, Grand rəqs qrupunda iştirak edir. Bir çox tədbirlərdə və efirlərdə öz rəqs bacarıqlarını nümayiş etdirmişdir. Bununla bərabər o, gitar çalmağı da bacarır və çox sevir. Boş zamanlarında gitar çalır və oxuyur. Asudə vaxtdın da o, həm də videolar çəkib youtube kanalında paylaşır.

Atası Manafoc Bəhruz Rabitə texnikomunu bitirib və hal-hazırda "Ackon" tikinti şirkətində montajcı işləyir. Anası E.Əliyev adına 297 nömrəli tam orta məktəbdə ibtidai sinif müəlliməsidir. O, təhsildə elektron dərslər üzrə yenilikləri sevir və bu sahədə aktiv işlərə müəlliflik etmişdir.

Kənanın ən böyük arzularından biri məktəbi müvəffəqiyyətlə bitirib, ali məktəbə daxil olmaqdır. O, jurnalist olmaq istəyir. Biz də arzu edirik ki, Kənan gələcəkdə tələbə adını qazanar və həmişə müəllimlərinin, valideynlərinin fəxri olar.

# Məcnunlu Elton

***Elm hüdudsuz bir okeandır; mən və bəzi dostlarım bu okeandan bir neçə damlanı içmək fürsətini əldən vermədik.***
***İsaak Nyuton***




Elmin insan həyatının çiçəklənməsində müstəsna rolu vardır. Elmi nailiyyətlər nəticəsində bəşər həyatı daha da gözəlləşməyə doğru irəliləməkdədir. Elm zülmətdən işıqlığa və səadət nuruna yetişməkdə bəlkə də yeganə vasitədir. Hər bir cəmiyyətin həyat səviyyəsinin yüksəlişi, tərəqqisi həmin toplumda elmin inkişafından, elmə marağın hansı səviyyədə olmasından və daha bir çox elmlə bağlı ünsürlərin həmin cəmiyyətdə olub-olmamasından asılıdır. Cəhalət və savadsızlığın hakim olduğu bir təbəqə və cəmiyyət sonunda süquta məhkumdur. Bizim gələcəyimiz savadlı və bacarıqlı gənclərimizdən asılıdır. Onlardan biri də Məcmunlu Eltondur.

Məcmunlu Elton Sabunçu rayonunda anadan olub. O, Zəngilan rayonunun 32 nömrəli tam orta məktəbin 1-ci sinifinə qədəm qoyub. Hal-hazırda elə həmin məktəbdə təhsil alır. Yaxşı oxuduğuna görə müəllimləri tərəfindən çox sevilən və əzizlənən bir şagirddir. O, bütün fənlərdən yaxşı qiymətlər alır. Ən çox sevdiyi fənn isə Riyaziyyat və Tarix fənnidir. Elton ona dərs deyən bütün müəllimlərini çox sevdiyini deyir, onlara böyük hörmət bəslədiyini vurğulayır. Bu sırada Mətanət müəllimə və Məshəti müəlliməni xüsusi olaraq qeyd edir. Onun idmana böyük marağı var. O, həm öz sağlamlığının qeydinə qalır, həm də professional idmançı olmaq üçün çalışır. Boş zamanlarında məşqlər edir. Gələcəkdə cudo üzrə tanınmış güclü idmançı olmaq istəyir. Bununla bərabər o boş zamanlarını dərslərinə ayırır. Ailəsi 4 nəfərdən ibarətdir.

Atası- Məcnov Qəşəm. 1970-ci ildə anadan olub.

Anası- Məcnova Günay. 1981-ci ildə anadan olub. İşləmir.

Bacısı- Məcnunlu Mükafat. Məktəblidir. 10-cu sinif şagirdidir.

Elton öz çalışqanlığı, nizam-intizamı , davamiyyəti və tərbiyəsi ilə bütün müəllimlərin sevgisini qazanmışdır. O, müəllimlərinin zəhmətini yüksək qiymətləndirir, onların zəhmətinin hədər olmaması üçün əlindən gələni edir və idmançı olmaq arzusu ilə yaşayır. Biz də öz növbəmizdə Məcmunlu Eltona həyat yolunda müvəffəqiyyətlər və uğurlar arzu edirik. Yolun açıq olsun!

# Məmmədov İlham

*Mənim ümmətimdən hər bir ağıl sahibinə bu dörd şey vacibdir; elmi eşitmək, onu öyrənmək, yaşamaq və ona əməl etmək.*

*Məhəmməd peyğəmbər*




Bilik xəzinədir. Elm, bilik o qədər həzz mənbəyidir ki, o insana hər şeyi, hətta fiziki iztirabı, necə qocaldığını belə unutdura bilər.

Öyrənilməsi lazım olanlar həddindən artıq çox, insan həyatı isə olduqca qısadır. Biliksiz həyat həyat deyil. O adam məharətlidir ki, çox əziyyət çəkmədən elmə yiyələnir. Çox şeyi başqalarından öyrənir,hamının müdrikliyindən və qabiliyyətindən bəhrələnir. Yaşayaraq əldə edilən bilik daş üzərinə həkk edilmiş yazıdır. Bilik bir gücdür. Elm öyrənmək böyük bir zəhmətdir. J.J.Russo demişdir: "Döyüşdə silah lazım olduğu kimi, həyatda da bilik lazımdır."

Müasir elm və tərəqqi elə bir səviyyəyə gəlib çatmışdır ki, nə orta, nə də ali məktəblər insana onun həyatının axırına kimi bütün bilik və elmi verə bilmir. Məhz buna görə də hər bir insan daima axtarışda olmalı, yeniliklərlə tanış olub, yeni bilik əldə etməlidir.Bunu dərk edib, elmə yiyələnməyə can atan şagirdlərimizdən biri də Məmmədov İlhamdır.

Məmmədov İlham Fəqan oğlu 24 may 2002-ci ildə Ucar rayonunun Qəzyan kəndində anadan olub. 2009 -cu ildə Ağdam rayonunun 149nömrəli tam orta məktəbin 1-ci sinifinə qədəm qoyub. Hal-hazırda elə həmin məktəbin 10-cu sinif şagirdidir. O, məktəbin ən qabaqcıl və nümunəvi şagirdlərindən biridir. Ona tədris olunan bütün fənləri sevir, xüsusilədə Azərbaycan-dili fənnini. İlham ona dərs deyən bütün müəllimlərini sevir və onlara böyük hörmət bəslədiyini vurğulayır. İlham dərslərindən əlavə idmanla da məşğul olur. Onun idmana böyük marağı var. O, həm öz sağlamlığının qeydinə qalır, həm də professional idmançı olmaq üçün çalışır. Boş zamanlarında məşqlər edir. İlham karate üzrə kecən ilin yekununda ən yaxşı idmançı adına layiq görülmüşdür. O, gələcəkdə idman müəllimi olmaq arzusundadır. Ailəsi 4 nəfərdən ibarətdir.

Anası- Gülməmmədova Xəyalə Gülməmməd qızı. İşləmir.

Qardaşı- Məmmədov İman Fəqan oğlu.

Biz də öz jurnalımız adından İlhama həyat yolunda bol-bol müvəffəqiyyətlər arzu edirik. Yolun açıq olsun!

# Muradzadə Ulduzə

*Kitab zamanın dalğaları üzərində səyahət edən və öz qiymətli yükünü ehtiyyatla nəsillərdən-nəsillərə yetirən fikir gəmisidir.*
***F.Bekon***



İnsan qılıncının kəskinliyi ilə qəhrəman ola bilməz, ağlın kəskin olması lazımdır. İnsan elm və biliklə nemət yaradaraq ömrünü dəyərləndirməlidir. Fikrimcə elmdə ən başlıca şüar `irəli get` olmalıdır. Yaxşı və qiymətli olan şey heç vaxt əhəmiyyətini itirmir. İnsan daim ətrafındakı yaxşı nümunələrdən örnək almalı, xalqı və milləti üçün yararlı bir şəxs olmağa çalışmalıdır. Muradzadə Ulduzə də belə çalışqan və örnək şagirdlərdən biridir.

Muradzadə Ulduzə 12 oktyabr 2008-ci ildə Bakı şəhərində anandan olub. 2014- cü ildə Zəngilan rayonu 32 nömrəli tam orta məktəbin 1-ci sinifinə qədəm qoyub. Hazırda həmin məktəbin 4-cü sinif şagirdidir.O, məktəbin ən qabaqcıl və nümunəvi şagirdlərindən biridir. Ona tədris olunan bütün fənləri sevir, xüsusilədə Azərbaycan dili və Riyaziyyat fənnini. Ulduzə ona dərs deyən bütün müəllimlərini sevir və onlara böyük hörmət bəslədiyini vurğulayır və bu sırada Zəhra müəllimə, Arzu müəllimə və Camal müəllimənin adını xüsusi olaraq qeyd edir. Ulduzə dərs ilini əla qiymətlərlə bitirdiyi üçün dəfələrlə fəxri fərman və tərifnamələrlə təltif olunub. Ulduzə dərslərindən əlavə boş vaxtlarında kitab oxuyur. O, bununla dünyagörüşünü və təfəkkürünü inkişaf etdirir. O, savadlı, çalışqan uşaq olduğu qədər həm də xeyirxah və köməksevər uşaqdır. Anasına kömək etməyi də unutmur. Ulduzənin ən böyük arzusu məktəbi müvəffəqiyyətlə bitirib həkim və ya müəllim olmaqdır. Bu iki şərəfli peşədən hansını seçəcəyindən asılı olmayaraq, biz ona gələcək həyatında və kariyerasında müvəffəqiyyətlər arzu edirik. Ailəsi 5- nəfərdən ibarətdir.

Atası- Muradov Amil. Tarix müəllimidir. Anası- Muradzadə Röyalə. Müəllim Psixoloqdur. Bacısı- Muradzadə Ayşə. Qardaşı- Muradzadə Uğur.

Ulduzəyə həyat yolunda bol-bol uğurlar arzu edirik. Ona vətənə layiqli vətəndaş, valideynlərinə layiqli övlad, müəllimlərini öz uğurları ilə sevindirən və gələcəkdə tələbə adını qazanan şagird olmağını arzu edirik.

# Musayeva Fatimə

*Bir elm öyrənmək istədikdə sən*
*Çalış ki hər şeyi kamil biləsən.*
*Kamil bir palançı olsa da insan,*
*Yaxşıdır yarımçıq papaqçılıqdan.*

*Nizami Gəncəvi*



Bilikli insan hərtərəfli olduğu üçün hər hansı bir çətin vəziyyətdən çox asanlıqla çıxa bilir. Belə insanlar ziyalılığın göstəricisi kimi güclü ünsiyyət bacarığına da yiyələnmiş olur. Belə ki, dili, ünsiyyəti güclü olan insan malik olduğu bilik və bacarığını daha da rahat, başa düşüləcək tərzdə ifadə etmək qabiliyyətindədir. Budur ziyalılıq. Elmin mənbəyi evimizidən, bağçadan və məktəbdən başlanır. Elm öyrənmək böyük zəhmət, qabiliyyət və zaman tələb edir. Bu işdə bilikli, dünyagörüşlü, milli dəyərlərimizi ifadə edən müasir texnikaya, onun nailiyyətlərinə yiyələnmiş vətənpərvər, fədakar müəllimlərimiz böyük rol oynayır. Bunu dərk edib, elmə yiyələnməyə can atan şagirdlərimizdən biri də Musayeva Fatimədir.

Musayeva Fatimə Şükür qızı 10 fevral 20018-ci ildə Bakı şəhərində anadan olub. 2014-cü ildə Zəngilan rayonunun 32 nömrəli tam orta məktəbin 1-ci sinifinə qədəm qoyub. Hal-hazırda isə elə həmin məktəbin 5-ci sinif şagirdidir. Fatimə çox çalışqan və məsuliyyətlə şagirddir. O, bütün fənlərdən yaxşı qiymətlər alır. Ən çox sevdiyi fənn isə Tarix, Musiqi, Rus dili, Həyat Bilgisi və Təsviri incəsənət fənləridir. Lakin o, bütün fənlərin əhəmiyyətini dərk edir və hər bir fənnə məsuliyyətlə yanaşır. Fatimə ona dərs deyən bütün müəllimlərini çox sevdiyini deyir, onlara böyük hörmət bəslədiyini vurğulayır və bu sırada K.Yeganə müəllimənin adını xüsusi olaraq qeyd edir. Fatimə dərs ilini əla qiymətlərlə bitirdiyi üçün fəxri fərmanlarla təltif olunub. Fatimə boş zamanlarını da dərs oxumaqla dəyərləndirir. Asudə vaxtında o, dərsləri ilə məşğul olur və bir sıra testlər işləyir. Onun ən böyük arzusu məktəbi müvəffəqiyyətlə bitirib, ali məktəbə daxil olmaqdır. Tibb universitetinə daxil olub tələbə adını qazanmaq istəyən Fatimə balamız həkim olmaq arzusundadır. Onun xəstələrə, köməyə möhtac insanlara şəfa vermək və dərdlərinə çarə tapmaq kimi incə düşüncələri vardır.

Ailəsi 8-nəfərdən ibarətdir:

Atası- Musayev Şükür Rəhiman oğlu, anası- Nuhəddinova Suriyə Babaəli qızı və beş qardaşı.

Biz də redaksiyamız adından Fatiməyə müvəffəqiyyətlərinin bol olmasını və hər zaman ona inanan şəxslərin fəxri olmasını arzu edirik. Səsin daima yüksəklərdən gəlsin!

# Orucova Şeriyə

*Müasir həyat və dünyanın gələcəyi insanlardan daha çox bilik tələb edir.*
*Heydər Əliyev*



Elm həyatın elə zərif, incə sahəsidir ki, o, daim nəzarətdə olmalı, öz yolunu alim adını ləkələyən tör-töküntülərdən təmizləməlidir. Elmə fayda vermək naminə deyil, alim nüfuzundan istifadə etmək xatirinə kiminsə himayədarlığı altında gələnlər, əslində, elmə zərər vurur - onun inkişafına mane olur, həqiqi, cəfakeş alimlərdə narahatlıq hissi əmələ gətirir. Yaşının az olmasına baxmayaraq elmin incəliklərini anlamağa can atan şagirdlərimizdən biri də Şeriyədir.

Osmanova Şeriyə Natiq qızı 22 may 2009-cu ildə dünyaya gözlərini Bakı şəhərində açmışdır. Şuşa şəhər 1 mömrəli tam orta məktəbin birinci sinifinə 2014-cü ildə getmişdir. Hal-hazırda həmin məktəbin 4b sinifində oxuyur. Şeriyə çox savadlı və təmiz nitqə sahib olan şagirddir. Onun gözəl şeir demək qabiliyyəti vardır. Qatıldığı şeir müsabiqəsində birinci yeri tutaraq diplomla təltif olunmuş və bu istedadını hamıya sübut etmişdir. Onun ən sevimli müəllimələri Samirə müəllimə və Naciyə müəllimədir. Bütün fənlərini sevən Şeriyə xüsusilə Riyaziyyat fənninə daha çox maraq göstərir. Dərsdən kənar boş zamanlarında riyaziyyatdan misallar, məslələr, testlər həll edir. Bununla yanaşı asudə vaxtında o, nağıl kitabları oxuyaraq bədii təfəkkürünü də inkişaf etdirir.

Atası Orucov Natiq 1974-cü ildə anadan olmuşdur. O, bəstəkardır. “İlham olacaq”, “Qaytar Qarabağı” mahnılarının müəllifi olan Natiq bəy 400-dən çox mahnı bəstələyib. Qızı Şeriyə də musiqi məktəbində təhsil alır.

Anası Orucova Gülnar 33 yaşındadır. O, ali təhsillidir, hazırda evdar xanımdır. Şeriyənin 3 qardaşı və bir bacısı vardır. O, böyüyəndə müəllim olmaq istəyir. Öz bildiklərinə şagirdlərinə öyrətmək, gələcəyə ağıllı, savadlı və bacarıqlı gənclər yetişdirmək istəyən Şeriyəyə müvəffəqiyyətlərinin bol olmasını diləyirik.

# Quliyev Elmar

***İdmanla məşğul olan hər bir şəxs özünün fiziki sağlamlığını təmin edir, həm də cəmiyyətdə idmanın və bədən tərbiyəsinin insan üçün nə qədər lazımlı olduğunu subut edir.***

***H.Əliyev***







"Sağlam həyat sağlam idmanın nəticəsidir". Bu deyim idman sahəsində çalışan həkimlərin apardıqları araşdırmalardan sonra özləri üçün seçdikləri devizdir. Hər gün yüksək əhval-ruhiyyədə olmaq, enerjili və sağlam həyat yaşamaq istəyənlərə həkimlərin ilk və əsas məsləhəti idmanla məşğul olmaqdır. İdman dövlətin böyük bir qüvvəsidir və insanın, dövlətin həyatında böyük rol oynayır, belə ki, idman - həyat və sağlamlıqdır. Sağlam insan üçün hər bir şeyi etmək daha rahatdır. Bu planetdə hər şey onun əlləri ilə düzəldilmişdir, dünyanın yeddi möcüzəsindən tutmuş kosmik gəmilərə qədər. Lakin, bu hələ son hədd deyil. Buna görə də istənilən ölkədə idmana böyük diqqətlə yanaşırlar. Bizim Elmar balamız da idmanla məşğul olan şagirdlərimizdən biridir.

Quliyev Elmar Eldəniz oğlu 2008-ci il mayın 24-də anadan olmuşdur. O, birinci sinifə 2013-cü ildə getmiş və təhsilinə Ç.Quliyev adına Çardaxlı kənd tam orta məktəbində başlamışdır. Hazırda o, həmin məktəbin 5-ci "b" sinifində oxuyur. O, bütün fənlərini sevir və hər zaman dərslərinə məsuliyyətlə yanaşır. Müəllimlərinin hər birini sevən Elmar xüsusilə Rübabə müəllimə, Aynur müəllimə və Günel müəllimənin adlarını vurğulayır. O, sinifin ən fəal şagirdlərindən biridir. İstər tərbiyəsi, istərsə də savadı ilə o, qısa zamanda həm müəllimlərinin, həm də sinif yoldaşlarının hörmətini qazanmışdır. Elmar dərslərilə məşğul olduğu qədər idmana da maraq göstərir. Boş zamanlarında idman edir, professional şəkildə cüdo ilə məşğul olur və hətta bu sahədə çoxlu uğur və nailiyyətlərə imza atmışdır. Sumqayıt şəhərində keçirilən cüdo üzrə yarışda 1-ci yeri qazanmışdır. Ümumilikdə 5 dəfə birincilik, 2 dəfə ikincilik, 2 dəfə də üçüncülük nailiyyətləri vardır. O, qeyd edir ki, bu yarışlarda göstərdiyi bacarığı və gücü sayəsində 9 medalı, 11 diplomu və fəxri fərmanı vardır. Onun ən böyük arzusu cüdo üzrə ölkəmizi xaricdə təmsil etmək və bayrağımızı həmişə yüksəklərdə dalğalandırmaqdır. Həqiqətən də bizim belə istedadlı gənclərimizə və onların qazandıqları uğurlara ehtiyacımız vardır.

Elmarın ailəsi 5 fərddən ibarətdir: atası Quliyev Eldəniz Əlihəsən oğlu 29 sentyabr 1979-cu ildə anadan olub, hazırda tikintidə usta kimi işləyir. Anası Quliyeva Gövhər Əmir qızı 1 fevral 1980-cı ildə anadan olub, hazırda evdar xanımdır. Elmarın 2 bacısı var.

Elmar məktəbi müvəffəqiyyətlə bitirib, tələbə adını qazanmaq və polis olmaq istəyir. Millətini, xalqını mərd şəkildə qoruyub, vətəninin keşiyində durmaq istəyən bu ağıllı şagirdimizlə qürur duyur və ona uğurlarının daimi olmasını arzu edirik. Səsin hər zaman yüksəklərdən gəlsin!

# Seyidzadə Nurgül

*Kitab zamanın dalğaları üzərində səyahət edən və öz qiymətli yükünü ehtiyyatla nəsillərdən-nəsillərə yetirən fikir gəmisidir.*
*F.Bekon*



Elm və bilik insan həyatını mənalandıran, onu zənginləşdirən işıqlı bir yoldur. Odur ki, həyat və güzəranımızı daha mənalı etmək, səmərəli yaşamaq üçün daha çox təhsilə, savada yiyələnməliyik. Burada bu dəyərlərini gələcəkdə qoruyub saxlayacaq gənclərimizdən biri də Seyidzadə Nurgüldür.

Seyidzadə Nurgül Əmirxan qızı 2011-ci ildə Bakı şəhərində anadan olub. 2017- ci ildə Ağdam rayonunun 149 nömrəli tam orta məktəbin 1-ci sinifinə qədəm qoyub. Hal-hazırda isə elə həmin məktəbin 2-ci sinif şagirdidir. Nurgül çox çalışqan və məsuliyyətli şagirddir. Ona tədris olunan bütün fənləri sevir, xüsusilədə İnformatika, Riyaziyyat və Ana-dili fənnini. Nurgül ona dərs deyən bütün müəllimlərini çox sevdiyini deyir, onlara böyük hörmət bəslədiyini vurğulayır. Nurgül yaşıdlarından fərqli olaraq boş zamanlarını daha sərfəli dəyərləndirir. O, çoxlu bədii kitablar oxuyur və bununla da bədii təfəkkürünü inkişaf etdirir. Nurgül oxumaqla yanaşı şahmat oynamağı da çox sevir, şahmat oynuyaraq həm də öz məntiqi düşünmə qabiliyyətini daha da inkişaf etdirir. Onun ən böyük arzusu məktəbi müvəffəqiyyətlə bitirib ali məktəbə qəbul olmaqdır. Ailəsi 4 nəfərdən ibarətdir.

Atası- Seyidov Anar Əmirxan oğlu. Ağsu rayonunda anadan olub. Şahmatçıdır. Boş vaxtlarında şahmat oynamağı çox sevir və eyni zamanda Şərqşünaslığı bitirib.

Anası- Seyidova Nərgiz İbrahim qızı Zaqatala şəhərində anadan olub. İşləmir. Boş vaxtlarında toxuculuqla məşğul olur.

Bacısı- Seyidzadə Mədinə 2014-cü ildə Bakı şəhərində anadan olub. Bizdə öz jurnalımız adından Nurgülə həyat yolunda bol-bol müvəffəqiyyətlər arzu edirik. Yolun açıq olsun!

# Şıxlı Miryusif

*Elm hüdudsuz bir okeandır; mən və bəzi dostlarım bu okeandan bir neçə damlanı içmək fürsətini əldən vermədik.*
*İsaak Nyuton*



Bəli, təhsil bizim gələcəyimizdir, ölkəmizi dünyaya tanıtmaq üçün bilik, savaddır. Müasir dünyada hər bir ölkənin gələcəyi həmin ölkədə təhsilin səviyyəsi ilə ölçülür. Təhsilin inkişafı hər bir ölkədə inkişaf konsepsiyasının mühüm tərkib hissəsidir.

Həyatın axarı , dünyada gəliş-gedişi göstərir ki, adamlar müxtəlif cür müdrikləşirlər. Çoxları altmış-yetmişi keçib topladığı həyat təcrübəsini saç-saqqalının ağlığı sayırlar. Ancaq elə adamlar da  var ki, onlar yaşın, saç-saqqalın gətirəcəyi səlahiyyəti gözləmədən ömrünün çox erkən çağlarından müdriklik statusu qazanır, bu nurlumərtəbəyə öz ləyaqət və davranışları ilə xeyli öncədən yüksələ bilər. Bu gənclərimizdən biri də Miryusif Şıxlıdır.

Miryusif Şıxlı İlham oğlu 28 noyabr 2007-ci ildə Yevlax şəhərində anadan olub. 2013-cü ildə 19 saylı Kəlbəcər məktəbinin 1-ci sinifinə qədəm qoyub. Hal-hazırda isə elə həmin məktəbin 5-ci sinif şagirdidir.  Məktəbə daxil olduğu gündən öz fəallığı, çalışqanlığı ilə seçilən şagirdlərdən biri olmuşdur. Tədris edilən bütün fənlərin özünəməxsus əhəmiyyətini nəzərə alaraq onların hər birinə diqqət ayıran Şıxlı Miryusif Riyaziyyat və İnformatika fənlərini çox sevir. İdmanla məşğul olub, sağlamlığının qeydinə qalan  Şıxlı idmanın karate növü ilə daha çox məşğul olur. Onun bu sahədə uğur və nailiyyətləri də vardır. Karate üzrə keçirən yarışda sertifikatla mükafatlandırılmışdır. Şıxlının gözəl şeir yazmaq qabiliyyətidə vardır. Boş vaxtlarında şeir yazmağı və şəkil çəkməyi çox sevir. O, gələcəkdə polis olmaq arzusundadır. Ailəsi 4 nəfərdən ibarətdir.Atası- Şıxıyev İlham Miryusif oğlu. 1979-cu ildə anadan olub. Anası- Şıxıyeva Sahibə Ərzulla qızı. 1980-cı ildə anadan olub.Bacısı- Şıxızadə Məryəm İlham qızı. 2010-cu ildə anadan olub.Bizdə öz jurnalımız adından Şıxlı Miryusifə müvəffəqiyyətlər arzu edirik. Səsin ucalardan gəlsin!

**Zaman vaxtı**

*Yallı gedir adamlar*
*Minikləri atdır-at,*
*Daşı-daşa vuraraq*
*Ocaq qurdular onlar.*
*İşləri nə zülümmüş*
*İndiki vaxtlara bax.*

# Vəlizadə Turac

*Elmin hüdudları üfüq xəttinə oxşayır:*
*biz ona nə qədər yaxınlaşsaq, o bizdən bir o qədər uzaqlaşır.*
*Pyer Buast*



Hər bir vətəndaşın fasiləsiz təhsil almaq hüququ vardır. Respublikanın hər bir vətəndaşının keyfiyyətli və fasiləsiz təhsil alması imkanının təmin edilməsi və təhsilin keyfiyyətinin yüksəldilməsi üçün şəraitin yaradılması dövlətin təhsil siyasətinin prioritet sahələrindəndir. Hazırda bu islahatların ən mühüm mərhələsinə qədəm qoyulmuşdur. Təhsilin məzmunu və təlimin təşkilinə verilən tələblərdə ciddi yeniləşmə və müasirləşdirmə prosesləri gedir. Bununla əlaqədar olaraq təhsilin və təlimin məzmununun müasir tələblərə uyğun olaraq müəyyən edilməsi, yeniləşdirilməsi və idarə olunması günü-gündən aktuallaşır. Müasir dövrdə təhsilin və təlimin məzmununa bəşəriyyət tərəfindən əldə edilmiş sosial təcrübənin bütün elementləri daxil edilməlidir. Şagirdimiz Turac da təhsildən maksimum dərəcədə yararlanan gənclərimizdəndir.

Vəlizadə Turac Rafiq oğlu 15 fevral 2006-cı ildə Bakı şəhərində anadan olub. Birinci sinifə 2012-ci ildə getmiş və Qubadlı rayon 3 saylı tam orta məktəbdə təhsilinə başlamışdır. O, hal-hazırda həmin məktəbin 7-ci sinifində öz təhsilinə davam edir. Onun ən sevdiyi fənlər Kimya, Riyaziyyatdır. Ən sevimli müəllimləri isə Arifə, Elvira və Afət müəllimdir. O, sinifin ən fəal və ən savadlı əlaçısıdır. Bütün siniflərini əla qiymətlərlə bitirmişdir.

O, dərslərində göstərdiyi fəallığı idmanda da göstərmiş və çoxlu uğurlar qazanmışdır. Cüdo üzrə Türkiyədə keçirilən yarışda 2 dəfə birinci yeri, Rusiyada keçirilən yarışda 1-ci və 2-ci yerləri, Gürcüstanda keçirilən yarışda 2 dəfə 1-ci yeri,Ukraniyada 1-ci və 3-cü yerləri tutmuşdur.

Ailəsi 4 nəfərdən ibarətdir: atası Vəliyev Rafiq Hümbət oğlu, anası Abdullayeva Gözəl məktəb direktorudur. Qardaşı Vəlizadə Turalın 21 yaşı var və FHN-də işləyir.

Turac boş zamanlarında idman etməyi, futbolla məşğul olmağı da unutmur. O, idman etməklə öz sağlamlığının da qeydinə qalmış olur. Ən böyük arzusu məktəbi müvəffəqiyyətlə bitirib ali məktəbə daxil olmaqdır. Tələbə adını qazanmaq istəyən Turac polis olmağı arzulayır. Biz də redaksiyamız adından bu istedadlı şagirdimizə hər zaman müvəffəqiyyətlərinin bol olmasını arzu edirik. Səsin hər zaman yüksəklərdən gəlsin!

# Soltanlı Məryəm

*Kitab zamanın dalğaları üzərində səyahət edən və öz qiymətli yükünü ehtiyyatla nəsillərdən-nəsillərə yetirən fikir gəmisidir.*
*F.Bekon*



Elmin mənbəyi evimizdən, bağçadan və məktəbdən başlanır. Elm öyrənmək böyük zəhmət, qabiliyyət və zaman tələb edir. Bu işdə bilikli, dünyagörüşlü, milli dəyərlərimizi ifadə edən müasir texnikaya, onun nailiyyətlərinə yiyələnmiş vətənpərvər, fədakar müəllimlərimiz böyük rol oynayır.

Daş-qaş əvəzinə özünə bilik yığsan daha çox tanınarsan: ən qiymətli daşı salıb itirə bilərsən, ən sadə biliyi isə səndən heç kəs ala bilməz.

Qazandığı bilikləri özündə bir sərvət kimi saxlayan və dahada irəliyə aparmağa çalışan şagirdlərimizdən biri də Məryəmdir. O ,təhsilin , savadın insan həyatındakı önəmini də, vacibliyini də yaxşı başa düşür.

Soltanlı Məryəm İmran qızı 13 aprel 2010-cu ildə Tərtər rayonunda anadan olub.2016-cı ildə 297 nömrəli tam orta məktəbinin 1-ci sinfinə qədəm qoyub. Hazırda həmin məktəbin 3-cü sinif şagirdidir. Məktəbə başladığı ilk günlərədən dərslərinə olan marağı onu sinifdə digər yoldaşlarından fərqləndirib. Məsuliyyəti və çalışqanlığı ilə müəllimlərinin sevgisini və hörmətini qazanan Məryəm hər zaman dərslərinə hazır olub və sinif əlaçısı olub. Sinif əlaçısı olan Məryəm bütün dərslərə olan marağı onu dərslərində əlaçı olamağa sövq edib, lakin , ən sevdiyi fənlər və bu fənləri ona sevdirən müəllimlər isə , Azərbaycan dili- Adilə müəllimədir.Məryəmin məqsədi dərslərini əla oxuyub gələcəkdə həkim olmaqdır.O deyir ki, vətəninə , millətinə layiqincə xidmət edib, insanlara şəfa vermək istəyir.Sinif əlaçısı olmaqla yanaşı ,həmçinin də bir çox uğurları var.Belə ki, dərslərini yaxşı oxuduğuna görə həm də fəxri fərman alıb.Boş vaxtlarını dərs oxumaqla yanaşı rəsm çəkməklə dəyərləndirən Məryəmin ailəsi 4 nəfərdən ibarətdir.

Atası-Soltanov İmran Fəxrəddin oğlu ,Azər enerjinin hərbiləşdirilmiş mühafizə dəstəsinin MMC-nin əməliyyat qrupunun növbətçisi kimi fəaliyyət göstərir.

Anası-Məmmədova Lətafət Səfərbəy qızı,evdar xanımdır.

Bacısı-Soltanlı Lalə , hazırda 297 nömrəli tam orta məktəbin 1-ci sinif şagirdidir.

Biz də öz jurnalımız adından Məryəm balamıza gələcək həyat yolunda uğurlar diləyir , bütün arzularına catmağı arzu edirik.Hər zaman valideynlərinin və müəllimlərinin fəxri olsan və səsin daim ucalardan gəlsin.Yolun açıq olsun!

# Hüseynli Əburəhman

*Kitab zamanın dalğaları üzərində səyahət edən və öz qiymətli yükünü ehtiyyatla nəsillərdən-nəsillərə yetirən fikir gəmisidir.*
*F.Bekon*






Elm, savad, bilik və təhsilin bizim həyatımızda önəmi hamımıza məlumdur. Elm insanın dünyagörüşünü artırmaqla yanaşı, həm də bizdə insani keyfiyyətlərin zənginləşməsinə şərait yaradır. Elm, savad insanı aydınlığa aparan yol, onu müdrik bir insana çevirən vasitədir. Hər birinin istəyi savadlı, dünyagörüşlü, bilikli, ziyalı bir şəxs olmaqdır. Bu yolda isə bizə kömək edən, yolumuzu işıqlandıran vasitə elmdir. Savadlı insan həmişə həyatında özünə düzgün yön seçə , doğru qərarlar verə bilir. Elmin, savadın, biliyin mahiyyətini dərk edən və bu yolda irəliləməyə çalışan şagirdlərimizdən biri də Əburəhmandır.

Hüseynli Əburəhman Fərhad oğlu 9 iyul 2005-ci ildə Gəncə şəhərində anadan olmuşdur. O, əslən Şuşa sakinidir, lakin işğal zamanı ailəsi öz yurdlarını tərk etmək məcburiyyətind olduğundan Gəncəyəköçmüşlər. 2011-ci ildə Kəlbəcər rayon 9 saylı tam orta məktəbinin 1-ci sinfinə qədəm qoyub. Hal-hazırda həmin məktəbin 8-ci sinif şagirdi olan Əburəhman oxuduğu illər ərzində əlaçı şagird olmuşdur.Əburəhmanın ən çox sevdiyi fənlər Azərbaycan dili, Riyaziyyat, Ədəbiyyat, İngilis dili və ən çox sevdiyi müəllimləri isə Quliyeva Şərqiyyə , Mamedova Ofeliya , Yusifzadə Ləman, Cəfərov Ənvər və Quliyev Elşən müəllimdir. Əburəhmanın arzusu gələcəkdə tarzən olmaqdır. O,  dərsləri ilə yanaşı boş vaxtlarında tar çalır və kitab oxuyur ,mütaliəni sevir, əlavə məlumatlar almaq onun dünyagörüşünü artırır.Bu sahədə bir çox nailiyyətləri və uğurları var, 2 dəfə fəxri fərman alıb.4 nəfərlik bir ailənin üzvü olan Əburəhman hər zaman çalışır ki, valideynlərinin fəxri olsun və daim başlarını uca etsin.Müəllimlərinin də əziyyətini yerdə qoymadığına görə çox sevinir.Onun atası-Hüseynov Fərhad 1983-cü ildə anadan olub və ayaqqabı fabrikində işləyir.Anası-Hüseynova Hürü 1988-ci ildə anadan olub və evdar xanımdır.Bacısı-Hüseynova Tovuz 2007-ci ildə anadan olub .

Bizdə öz növbəmizdə Əburəhmana gələcək həyat yolunda uğurlar arzulayır, müvəffəqiyyətlərinin daimi olmasını diləyirik.Daima ailənin və müəllimlərinin fəxri olasan.Yolun açıq olsun!

# Hüseynova Tovuz

*İdmanla məşğul olan hər bir şəxs özünün fiziki sağlamlığını təmin edir, həm də cəmiyyətdə idmanın və bədən tərbiyəsinin insan üçün nə qədər lazımlı olduğunu subut edir.*
***H.Əliyev***



Elm öyrənən insan həyatda həmişə yaxşını pisdən seçməyə qadirdir. Elm çöldə dostumuz, tənhalıqda munisimizdir. Savadlı insan həmişə sənəd və hünər əldə edib yaxşı ad qazanmağa, özündən sonra gələcək nəsillərə xeyirli bir iz qoymağa çalışmalıdır. Elm ağlın çırağıdır. İnsanın əsl üstünlüyüdür. Təhsil alan hər bir kəs özünün həyatda həmişə bir addım öndə olduğunu bilir.Təhsili, biliyi, savadı onun üçün çox vaxt bağlı qapıların açarı olur. “Açılan hər məktəb bir həpsxananın bağlanması deməkdir”(Viktor Hüqo). Elm sanki bir müharibə meydanını xatırladır. Yaradıcı alimlər ön cəbhədə olur və əsl döyüşdə burada gedir. Savadlı insanla söhbət hər hansı bir yaxşı kitabı oxumaq qədər dəyərlidir. Elm, təhsil, savad, bilik yolunda irəliləməyə çalışan şagirdlərimizdən biri də Hüseynova Tovuzdur.

Hüseynova Tovuz Fərhad qızı 3 sentyabr 2007-ci ildə Gəncə şəhərində anadan olub. 2012-ci ildə Kəlbəcər rayon 9 saylı tam orta məktəbinin birinci sinfinə getmişdir. Tovuz məktəbə başladığı ilk vaxtlardan dərslərindəki fəallığına görə digər şagirdlərdən seçilirdi. Hal-hazırda həmin məktəbin 6-cı sinif şagirdidir. Oxuduğu illər ərzində dərslərində əlaçı olmuşdur. Bir çox uğur və nailiyyətləri ilə yanaşı, fortepiano üzrə fəxri fərman almışdır.Onun ən çox sevdiyi fənlər və o fənləri ona sevdirən müəllimlər isə Biologiya -Elşən müəllim, Azərbaycan dili-Ofeliya müəllim,Ədəbiyyat-Ofeliya müəllim, Azərbaycan tarixi-Günel müəllimə, Ümumi tarix-Günel müəllimə, Coğrafiya-Sevda müəllimə ,İngilis dili-Türkan müəllimədir. Tovuz onun üzərində əziyyəti olan bütün müəllimlərinə öz minnətdarlığını bildirdiyini deyir.Tovuzun gələcəkdə uğur qazanmaq istədiyi peşə müəllimlik peşəsi üzrədir.Ona bu peşəni sevdirən müəllimləri və ailəsi olmuşdur.Tovuz deyir ki, o öyrənməyi və öyrətməyi çox sevir. Boş vaxtlarında fortepiano da ifa edib və kitab oxumağı sevən Tovuz savad qazanmaq yolunda özünə kitabları yoldaş kimi seçmişdir. O ,gələcəkdə böyük uğurlara imza atmaq istəyir.Bu yolda onun ən böyük dəstəkçiləri ailəsidir. Ailəsi 4 nəfərdən ibarətdir.

Atası-Hüseynov Fərhad 1983-cü ildə anadan olub və ayaqqabı fabrikində işləyir.Anası-Hüseynova Hürü 1988-ci ildə anadan olub və evdar xanımdır.Bacısı-Hüseynova Tovuz 2007-ci ildə anadan olub .

Bizdə öz redaksiyamız adından Tovuza uğurlar arzulayırıq.Müəllimlərinin və valideynlərinin fəxri olmağını diləyirik.Yolun hər daim açıq olsun!

# Quliyeva İradə

*Milli ideologiyamızı hər yerdə tətbiq etmək üçün məktəblərdə Azərbaycan xalqının tarixinin tədrisinə çox ciddi fikir vermək lazımdır.Gənclərimiz öz tarixini , öz tarixi keçmişini gərək yaxşı bilsinlər.Çünki mənəviyyatımız gənclərin bu günkü və gələcək mənəviyyatı bununla bağlıdır.*
***HEYDƏR ƏLİYEV***



İradə müəllimənin uzun illər çəkən elm yolu öz şagirdlərinin və onların valideynlərinin çox böyük dəyərinə sahibdir.Bunu onların hər bir sözündən , bəslədiyi rəğbətindən hiss etmək olar.Quliyeva İradə müəllimə Səməndər qızı 16 oktyabr 1978-ci ildə Bakı şəhərində anadan olub. " Müəllimin də müəllimi olubdur əlbət " deyiblər.Təbii ki, İradə müəllimə də hələ orta məkəbdə oxuduğu vaxtlardan ona elmi, təhsili sevdirən müəllimlərinin nümunəvi şagirdlərindən olub və müəllimlərinin məsuliyyətindən , öz peşəsini layiqincə və şərəflə yerinə yetirməklərindən qaynaqlanan və gələcək həyat yolunun məqsədi olan müəllimlik peşəsi onun üçün çox dəyərli bir sənət olub.Ali məktəbi bitirdikdən sonra arzuladığı peşəyə yiyələnən İradə müəllimə artıq 16 ildir ki, pedaqoji fəaliyyət göstərir. Uşaq vaxtından bu peşəni sevən İradə müəllimə hazırda 297 nömrəli tam orta məktəbdə Azərbaycan dili və Ədəbiyyat müəllimosi kimi çalışır və 10d sinfinin sinif rəhbəridir.Şagirdlərinin sevgisini və hörmətini qazanmaq bir müəllim üçün ən önəmli işlərdən biridir.İradə müəllimə də buna nail olub və şagirdlərinin sevgi dolu baxışları onu çox məmnun edir.Müəllimənin sinfində nümunəvi şagirdlər üstünlük təşkil edir.İradə müəllimə dərslərini tam yeni metodlarla tədris edir və şagirdlərinin hər məlumatdan xəbər olması üçün hər zaman əlindən gələni əsirgəməməyə çalışır.Onun sinfində dəyirmi masa keçirilib, bir çox tədbirlər olub, bütün bunlarda müəllimənin məsuliyyətindən və işinə olan sevgisindən irəli gələn uğurlarıdır.

Pedaqoji fəaliyyəti dövründə yüzlərlə şagird yetişdirən İradə müəllimə haqqında bəzi valideyinlərə həmsöhbət olduqda çox yüksək və dəyərli fikirlərə sahib olduq.Onların dediyinə görə, İradə müəllimə şagirdlərinin hamısına heç bir fərq qoymadan , səbr və təmkinlər başa salır və gələcəklərini möhkəm təməllər əsasında qurmaqlarına yardımçı olur.

İradə müəllimənin ailəsi 3 nəfərdən ibarətdir. Atası-Qocayev Səməndər Molla oğlu, dəmiryolunda maşinist kimi çalışır.Anası-Qocayeva Xacay Məmməd qızı, dəmiryolunda operator kimi işləyib, hazırda işləmir təqaüdçüdür. Bir bacısı -Həsənova Rəna olan İradə müəllimənin ailəsi hər zaman öz qızları ilə fəxr edib və İradə müəllimə də oz işləri ilə daim uğur qazanıb və valideynlərinin başını uca tutub.

Biz də öz jurnalımız adından İradə müəllimәyə gələcək pedaqoji fəaliyyətində uğurlar arzu edirik.Hər zaman şagirdlərinin sevimli müəllimәsi qalmağı diləyilə .Yolunuz açıq olsun!

# Məmmədova Aləm

*“Elm tükənməz xəzinədir, o xəzinənin açarı isə soruşub öyrənməkdir.Soruşub öyrənin, çünki , soruşduqda 4 adama savab düşür: Soruşana, öyrənənə, dinləyənə, bunları sevənə.Elm Allahın yer üzündə qoyduğu əmanət, alimlər isə Allah elminin əmanətdarlarıdır.Hər kəs öz elminə əməl etsə , həqiqətdə əmanəti layiqincə sahibinə qaytarmışdır.”*



Əlində olanları sonuna qədər dəyərləndirən , öz istedad və bacarığının fərqində olan Aləm hər zaman bir amalla yaşayıb.Nə olursa , olsun həvəsdən düşmədən istədiyinə can atmaq və məqsədi nə olur olsun ona nail olmaq.Aləm uşaqlığından bəri əlinə aldığı hər işi həvəslə və motivasiya ilə yerinə yetirir.Bu qədər iddiali və istedadlı qızdır müsahibimiz.

Məmmədova Aləm Arif qızı 4 aprel 2008 Gəncə şəhərində anadan olub. 2014-cü ildə Kəlbəcər rayon 9 saylı tam orta məktəbin 1-ci sinfinə qədəm qoyan Aləm hazırda həmin məktəbin 5-ci sinif şagirdidir.Müəllimlərinin sevimlisi olan Aləm elə ilk günlərdən dərslərində fəal olmuş və sinif yoldaşlarından fərqlənmişdir. Boş vaxtlarında idmanla məşğul olur. İdman sahəsində bir çox nailiyyətlər və uğurlar əldə etmişdir.Hobbi olaraqdan da özünə idmanı seçmişdir. Aləm gələcəkdə idman sahəsi üzrə yox, dərslərini yaxşı oxuyub ali məktəbə qəbul olmağı və hüquqşünaslıq sahəsi üzrə irəliləməyi özünə məqsəd seçmişdir.Dərslərində əlaçı olan Aləm həm də “Hədəf” kurslarında sinif birinciliyi əldə etmişdir.Aləm ona tədris olunan bütün fənləri və fənn müəllimlərini sevdiyini deyir , lakin , aralarında Azərbaycan dili , Riyaziyyat , Tarix fənlərini və Şərqiyyə müəlliməsini, Günel müəlliməsini və Ofeliya müəlliməsini xüsusi bir sevgi ilə sevdiyini deyir.Anası-Qasımova Firuzə, evdar xanım olan Aləmin bir qardaşı var-Kamalov Alay hazırda 1-ci sinifdə oxuyur. Ailəsinin fəxri olan Aləmə biz də öz adımızdan gələcək həyat yolunda uğurlar arzulayırıq. Səsin daima ucalardan gəlsin.

# Quliyeva Yeganə

*Elm bir müharibə meydanını xatrladır.Yaradıcı alimlər ön cəbhədə olur və əsl döyüş də burada gedir.Arxa cəbhədə olanların vəzifəsi öndəkiləri silah-sursat və azuqə ilə təmin etmək, tutulmuş ərazilərdə səliqə səhman yaratmaqdır.*

***Əli Turxan***



Elm, savad qazanmaq hər kəsin isdədiyi bir şeydir.Amma buna hər kəs nail ola bilmir.Çünki biliyə, savada, təhsilə gedən yol çox keşməkeşli və çox zəhmət tələb edən bir yoldur.Necə deyərlər , əzyətini çəkməsən bəhrəsini görmərsən.Taberaninin belə bir deyimi var ki, “ Qız uşağını gözəlcə tərbiyə edib , Allahu-Təalanın verdiyi nemətlərlə bolluq içində yedirsə , geydirsə , o qız uşağı onun üçün bir bərəkət olar, Cəhənnəmdən qurtulub asanca Cənnətə girməsinə vəsilə olar”. Anasının, atasının və bir qardaşının göz nuru olan Yeganə balamız 1 yanvar 2005-ci ildə Sumqayıt şəhərində dünyaya göz açmışdır.Dünyaya gəlişi ilə ailəsinə sevinc bəxş edən Yeganə 2012-ci ildə Qubadlı rayon C.Quliyev adına Çardaxlı kənd tam orta məktəbin 1-ci sinfinə qədəm qoymuşdur.Hal -hazırda həmin məktəbin 7-ci sinfində təhsil alır.Məktəbə başladığı ilk gündən müəllim və şagird kollektivinin rəğbət və sevgisini qazanan Yeganənin dərslərə olan marağı onu sinif əlaçısı və qabaqcıl bir şagird olmağa sövq etmişdir.Bütün fənlərini xüsusi bir maraqla oxuyan balamızın xüsusilə Riyaziyyat , Biologiya, Kimya və Ümumi tarix fənlərinə marağı daha çoxdu, bu fənləri bir ayrı sevir.Gələcəkdə Riyaziyyat müəlliməsi olmağı qarşısına məqsəd qoyan Yeganəyə bu yolda dəstək verənlərdən biri də onun müəllimləridir. Bütün müəllimlərini sevən balamızını ən sevimli müəllimləri isə Rübabə müəllimə, Gülnar müəllimə, Əfsanə müəllimə, Vəfa müəllimə və Mətanət müəllimədir.Yeganənin bir çox uğur və nailiyyətləri vardır. Bunlar Azərbaycan dili və Ədəbiyyat fənləri üzrə keçirilən dərslərdən fəxri fərman almışdır və oxuduğu illər ərzində 6 dəfə əlaçı olub. Daha sonra “Yurdumuzun təbiəti” mövzusunda yazılan inşanın yaxşı təqdimatına görə sertifikat alıb. Boş vaxtlarında kitab oxuyan, rəsm çəkən və musiqi dinləməyi sevən Yeganənin ailəsi 4 nəfərdən ibarətdir:

Atası-Quliyev Zaur Rəhbər oğlu , 1979-cu il 12 sentyabrında Füzuli rayonunun Qacar kəndində anadan olub.Hazırda menecer işləyir.

Anası-Quliyeva Günel Qədir qızı, 1984-cü ildə Beyləqan rayonunun Şərq kəndində anadan olub. Evdar xanımdır.

Qardaşı-Quliyev Müseyib Zaur oğlu, 2004-cü ildə Füzuli rayonunun Qacar kəndində anadan olub və hazırda 9-cu sinif şagirdidir.

Biz də öz jurnalımız adından Yeganə balamıza gələcək həyatında uğurlar arzu edirik və səsinin daim yüksəklərdən gəlməsini diləyirik.

# Əliyeva Fatimə

***“Elm tükənməz xəzinədir, o xəzinənin açarı isə soruşub öyrənməkdir.Soruşub öyrənin, çünki , soruşduqda 4 adama savab düşür: Soruşana , öyrənənə, dinləyənə, bunları sevənə.Elm Allahın yer üzündə qoyduğu əmanət, alimlər isə Allah elminin əmanətdarlarıdır.Hər kəs öz elminə əməl etsə , həqiqətdə əmanəti layiqincə sahibinə qaytarmışdır.”***



Savadlı, təhsilli insanla ünsiyyət qurarkən heç yorulmursan. Əksinə onun söhbətindən bir rahatlıq, sakitlik duyursan. Müsahibindən bəzən heç oxumadığın, eşitmədiyin tarixi faktlar, gözəl kəlamlar eşidirsən. Bunlar insan ruhunu qidalandırır, rahatladır. Bilik insanı güclü edir. Çünki bilikli insan həm də ziyalı olur. Ona görə ki, belə insanlar yaşadığı cəmiyyətin bütün keyfiyyətlərini, mənsub olduğu millətin zəngin mənəvi dəyərlərini, tarixi şəxsiyyətlərini tanıyır, dilini, dinini təbliğ edir. Bu cür insanlar eyni zamanda yaşadığı müasir cəmiyyətin nail olduğu texnologiyanın, müasir avadanlıqların və onlarla davranış mədəniyyətinə də sahiblənirlər.

Əliyeva Fatimə Namiq qızı 12 avqust 2007-ci ildə Bakı şəhərində anadan olmuşdur.2014-cü ildə Ağdam 33 saylı tam orta məktəbinin 1-ci sinfinə qədəm qoymuşdur.Hal -hazırda həmin məktəbin 5 -ci sinif şagirdidir.Məktəbə başladığı ilk günlərdən çalışqanlığı və məsuliyyəti ilə müəllimlərinin sevimlisinə çevrilmişdir.Öz bacarığı və tərbiyəsi ilə yoldaşlarından seçilən Fatimə hər zaman dərslərinə xüsusi sevgi ilə yanaşmışdır.Onun ən çox sevdiyi fənlər -İngilis dili və Riyaziyyatdır.Ən sevdiyi müəllimləri isə Günay müəllimə, Aygün müəllimə, Lamiyə müəllimə və Səadət müəllimədir. Məktəb vaxtından yaranan təhsilə, elmə, savada olan marağı onda ali məktəbə qəbul olmaq fikri yaradıb və Fatimənin məqsədi dərslərini yaxşı oxuyub məktəbə qəbul olmaqdır.O , yaxşı başa düşürdü ki, insanı ucaldan amillərdən biri və birincisi savaddır. Ona görə də , bu yolda irəliləməyi qarşısına məqsəd qoyur.Ona bu yolda ailəsi və müəllimləri böyük dəstək vermişlər.Valideynləri hər zaman Fatimənin qərarlarına , istəklərinə hörmətlə yanaşmış və əllərindən gələn hər şeyin artığını etməyə çalışmışlar.Boş vaxtlarını da dərsləri ilə məğul olmaq və pianinoda da ifa etməklə keçirir. Onun ailəsi 4 nəfərdən ibarətdir.

Atası-Əliyev Namiq Rəhman oğlu. Anası-Əliyev Səadət Habil qızı müəllimədir. Qardaşı-Əliyev Elnur 7-ci sinifdə oxuyur.

Biz də öz jurnalımız adından Fatiməyə uğurlarının daha da bol olmasını diləyirik və arzularına çatmağını arzulayırıq. Səsin daim yüksəklərdən gəlsin.

# Əliyeva Səadət

*Elmin hüdudları üfüq xəttinə oxşayır:*
*biz ona nə qədər yaxınlaşsaq,  o bizdən bir o qədər uzaqlaşır.*
*Pyer Buast*



Təhsil millətin gələcəyidir.Mən dünyada müəllimdən yüksək ad tanımıram.Bizim hər birimiz elmi dərəcəmizdən, biliyimizdən, təhsil səviyyəmizdən asılı olmayaraq, bütün nailiyyətlərimizə görəməktəbə, müəllimə borcluyuq. Mən Azərbaycanın sadə vətəndaşıyam. Bu addan yüksək ad yoxdur. Ancaq bundan da yüksək ad müəllimlikdir.Həyatını müəllimliyə həsr edən insanlar, həqiqətən, fədakar, xalqına,millətinə sədaqətli və eyni zamanda qəhrəmanlıq göstərən insanlardır.Azərbaycan müəllimləri ən yüksək mənəviyyata, vətəndaşlıq hisslərinə malik olan insanlardır.

Müəllimlik sənəti şərəfli bir sənətdir.Bu peşəni şərəflə və layiqincə yerinə yetirən müəllimlərimizdən biri də Əliyeva Səadət müəllimədir.

Əliyeva Səadət Habil qızı 29 avqust 1977-ci ildə Ağdam rayon Ətyeməzli kəndində ziyalı ailəsində anadan olub.1983-cü ildə orta məktəbə qədəm qoyan Səadət müəllimə 1993-cü ildə Ağdam rayonu işğal olunduğu üçün ailəsi ilə birlikdə Şamaxı şəhərinə köçmüş və orda məskunlaşmışlar.Elə Şamaxı şəhərində yerləşən 5 saylı C.Cəbrayılbəyli adına orta məktəbə getmiş və 11 illik orta təhsilini əla qiymətlərlə orda tamamlamışdır. Məktəbi bitirdikdən sonra, 1994-cü ildə Azərbaycan Dillər Universitetinə daxil olan Səadət müəllimə 1998-ci ildə ali təhsilini uğurla başa vurub.2000-ci ildən Ağdam rayon 33 saylı tam orta məktəbində İngilis dili müəlliməsi kimi fəaliyyət göstərir.Səadət müəllimə müsahibəmiz zamanı bunu xüsusilə vurğuladı kı, “ Mən bu gün də fəxr edirəm ki, öz rayonumuzu təmsil edən Ağdam rayon 33 saylı tam orta məktbdə çalışıram .” Səadət müəllimə bu günə kimi öz məktəblərində


Certificate of Attendance
This will certify that Əliyeva Səadət
attended a workshop
at the Annual Workshops for Teachers of Foreign Languages
at the XXI Century International Education
and Innovation Centre,
Baku, Azerbaijan, on March 1, 2014
Karimova Lumunat, Principal
XXI Century International Education and Innovation Centre
Farida Huseynova, Workshop Coordinator
Head of English Department, Direct Administrator of Cambridge International Centre

bir çox tədbirləri təşkil edib və keçirib.2013-cü ildən Təlimçi-müəllim kimi fəaliyyətini davam etdirən Səadət müəllimə 2000-ci ildən “Azərbaycan-İngilis dili “ müəllimlər birliyinin üzvüdür və həmçinin də 2013-cü ildən məktəbdə Metodbirləşmə rəhbəri kimi işləyir.Səadət müəlli-







mə pedaqoji fəaliyyəti dövründə hər zaman öz şagirdlərinin sevimli müəllimlərindən olub.Məsuliyyəti və çalışqanlığı ilə həm məktəbdə müəllim kollektivi arasında ,həm də valideynlər arasında xüsusi hörmətə və sevgiyə malikdir.Səadət müəllimə ailəlidir və 2 övladı var.Oğlu- Əliyev Elnur Namiq oğlu, Ağdam rayon 33 saylı tam orta məktəbinin 7-ci sinif şagirdidir.Qızı- Əliyeva Fatimə Namiq qızı, Ağdam rayon 33 saylı tam orta məktəbinin 5-ci sinif şagirdidir.

Biz də öz jurnalımız adından Səadət müəlliməyə gələcək pedaqoji fəaliyyətində uğurlarının daha da bol olmasını arzu edirik.Hər zaman şagirdlərinin sevimli müəlliməsi qalması diləyi ilə yolunuz açıq olsun.


SERTİFİKAT № 140
MƏMMƏDOVA SƏADƏT HABİL QIZI
“Öyrədənlərin öyrədəni” kursu çərçivəsində “Ümumi orta təhsil səviyyəsi üzrə yeni fənn kurikulumlarının tətbiqi və fəal təlim” mövzusunda keçirilən təlimləri bitirərək təlimçi adını almışdır.
Fənn- riyaziyyat
AMB, Müəllim Resurs Mərkəzi
30 mart -25 may, 2013 –cü il
Azad Müəllimlər Birliyinin sədri
Məlahət Mürşüdlü









# Şəkərəliyev Tunar

*Dünyada nə qədər kitab var belə*
*Çalışıb , əlləşib gətirdim ələ.*
*Oxudum , oxudum , sonra da vardım,*
*Hər gizli xəznədən bir dürr çıxardım.*
*NİZAMİ GƏNCƏVİ*





Həyatda insan bir çox amal uğrunda çalışır . Lakin bir çox şeyi əldə etmək üçün öncəlik təhsildə, elmdə, bilikdə olmalıdır.Çünki, bütün amala, istəyə gedən yolda yolumuzu aydınlatan bizim savadımız, elmimiz və dünyagörüşümüz olur.Öz məqsədlərinə çatmaq üçün özünə yol yoldaşı olaraq biliyi, savadı, elmi seçən şagirdlərimizdən biri də Şəkərəliyev Tunardır.

Şəkərəliyev Tünar Anar oğlu 24 iyun 2011-ci ildə anadan olmuşdur. 2016-cı ildə Ağdam rayon 33 saylı tam orta məktəbin 1-ci sinfinə daxil olmuşdur. Hal-hazırda həmin məktəbin 2-ci sinif şagirdidir. Tünar demək olar bütün fənlərini sevir və xüsusi maraqla oxuyur. Ona bütün fənləri sevdirən ilk növbədə müəllimləri olmuşdur. Tünar oxuduğu müddət ərzində əlaçı olmuş və daima müəllimlərini əzyətini dəyərləndirən şagirdlərindən olmaq üçün çalışmışdır. Tünarın arzusu və məqsədi gələcəkdə polis olmaqdır. O , istəyir ki, haqqın tərəfdarı kimi xalqının, millətinin yanında olsun.Tünar gələcəkdə savadlı bir kadır olmaq üçün boş vaxtlarını kitab oxumaqla, mütaliə etməklə dəyərləndirir. Tunar bir çox nailiyyətləri olan şagirddir və sinif əlaçısıdır.Tünarın ailəsi 4 nəfərdən ibarətdir.Onun həyatda ən böyük dəstəkçiləri də ailəsidir.Tünarın məqsədi valideynlərinin və müəllimlərinin əziyyətini yerdə qoymamaqdır.

Atası-Şəkərəliyev Anar, ustadır.Anası-Şəkərəliyeva Aysel evdar xanımdır. Tünarın 5 yaşında bir qardaşı var.

Biz də öz növbəmizdə Tünar balamızı uğurlarına görə təbrik edir, gələcək həyatında naliyyətlərinin artmasını diləyirik.Yolun açıq olsun.!

# SİYASİ NÜFUZ



Ölkə vətəndaşı olaraq hər bir kəsin birinci borcu müasir Azərbaycan dövlətini möhkəmləndirib dünyanın inkişaf etmiş ölkələrindən birinə çevirməkdir. Xalq prezidentlə birgə ölkənin ərazi bütövlüyünün bərpasına nail olmalıdır.Ulu öndər Heydər Əliyev Azərbaycanlı gənclərin elan olunmamış müharibədə həlak olmalarına yol verməməyə konfilikli müasir dünyada daha çox üstünlük verilən danışıqlar yolu ilə həll edilməsində görürdü. Ölkənin hələ lazımı gücə malik olmadığını yeni müstəqillik əldə etmiş dövlətin möhkəmləndirilməsi üçün vaxt tələb olunduğunu nəzərə alaraq tezliklə atəşkəsə nail olmağa çalışmış və buna nail olmuşdur.Ölkədə baş verən möhtəşəm işlər respublikanın iqtisadi-siyasi, hərbi gücünün durmadan artması, Azərbaycanın siyasi nüfuzunun beynəlxalq miqyasda artması,həyata keçirilən uğurlu dövlət siyasəti sayəsində mümkün olmuşdur.İndi Azərabaycan vətəndaşı ölkə rəhbərliyi tərəfindən həyata keçirilən sosial sahədə böyük uğurlar qazanacağına inanır.Daim inkişaf yolunda inamla addımlayan Azərbaycan Prezidenti cənab İlham Əliyevin inamı sayəsində ölkəmizin regionda lider olacağınadan xəbər verir.

Cənab İlham Əliyevin bütün müsbət keyfiyyətləri istər ölkə daxilində, istərsə də dünya miqyasında ölkəmizi irəliyə aparan gənc prezidentin sabaha inamını əks etdirir.Bütün bu işlər gözlənilməz deyil. Cənab İlham Əliyev müdrik və fəal rəhbərliyi ilə Azərbaycanın firavanlığı və tərəqqiyə gedən yolda nailiyyətlərinə vətəndaşlarımız əmindir.

Cənab İlham Əliyev andiçmə mərasimində Avropa Şurası kimi mötəbər beynəlxalq təşkilatın Azərbaycanın dinamik səyləri nəticəsində Ermənistanın işğalçı dövlət kimi tanınması faktını xüsusi vurğulamış, respublikamızın beynəlxalq aləmdə,dünya miqyasında daha möhkəm mövqelərə sahib olacağını bəyan etmiş,müstəqil dövlətimizin qonşularla münasibətlərini uğurla inkişaf etdirildiyini bildirmişdir.Dövlət başçısı Azərbaycanın ən ağır problemi kimi Ermənistan- Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə də toxunmuş bu problemin yalnız beynəlxalq hüquq normaları Azərbaycanın ərazi prinsipləri həlli mümkünlüyünü vurğulamışdır.Qətiyyətlə bildirmişdir ki,torpaqlarımız işğaldan azad olunmalı,bir milyon qaçqın və məcburi köçkün öz doğma yurdlarına qayıtmalı,ölkəmizin ərazi bütövlüyü bərpa olunmalıdır.

Azərbaycan prezidentinin məqsədyönlü fəaliyyəti nəticəsində ilk növbədə Azərbaycanın qüdrətli dövlətə çevrilməsi yolunda mühüm amil olan ictimai siyasi sabitlik,vətəndaş sülhü və həmrəyliyi qorunmuş saxlanılmışdır.Ümummulli liderimiz Heydər Əliyevin müəyyənləşdirilmiş balanslaşdırılmış xarici siyasət kursunun davamlılığının təmin oluması nəticəsində ölkəmizin sivil dünyanın siyasi-iqtisadi mənzərəsini müəyyən edən aparıcı dövlətlər və beynəlxalq təşkilatlarla münasibətləri yeni müstəvidə daha da inkişaf etdirilmişdir.

# SOSİAL- İQTİSADİ İNKİŞAF



2003-cü il seçkilərində xalqın etimadını qazanan Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyev prezident kimi fəaliyyətə başladığı ilk günlərdən ümummilli lider,Heydər Əliyevin nəhəng siyasi ümmanının bütün istiqamətlərinə nifuz edə bildi. Cənab İlham Əliyev bütün sahələrdə ümummilli lider Heydər Əliyevin strategiyasının layiqli davamçısı olduğunu əməli fəaliyyəti ilə nümayiş etdirir. Prezident kimi fəaliyyətində ilk növbədə iqtisadi məsələlərə xüsusi diqqət yetirdi.Nazirlər kabinetinin iclasını keçirtdi və hökümət qarşısında konkret vəzifələr qoydu.Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafı üçün böyuk əhəmiyyəti olan mühüm dövlət sənədini 2003-cü il 24 noyabr fərmanını imzaladı.Müstəqil Azərbaycanın sosial-iqtisadi inkişafını sürətləndirilməsini mühüm vəzifə kimi prioritet məsələlər sırasına qaldırdı.Bu əslində yeni liderin iqtisadi platformasının mühüm tərkib hissəsi idi, "Tərəqqi edən iqtisadiyyat dövlətin möhkəmliyinin təməlidir"prinsipini ardıcıl inkişaf etdirərkən yeni Azərbaycanın lideri sivil bazar iqtisadiyyatı yolu seçən ölkənin öz amallarına sadiqliyini bu müddətdə bir daha tam təsdiqləyə bildi.

Azərbaycanın özəl sektorunun inkişafın əsas strateji xətti olduğunu diqqətdə saxlayan Prezident cənab İlham Əliyev bu sahəyə dövlətin dəstəyinin ardıcıl davam etdirilməsini,mövcud nöqsan və maneələrin qətiyyətlə aradan qaldırılacağını yerli sahibkarlarla görüşdə cənab prezident xüsusi ifadə etmişdir.Həyata keçirilən siyasətin ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilən və qısa zamanda uğurlar qazanan strateji xətt olduğunu qeyd edən Prezident cənab İlham Əliyev sahibkarlığın inkişafını fəaliyyətini dəstəklədiyini bildirdi.Dövlət başçısının görüşdə söylədiyi fikirlər iqtisadiyyatımızın inkişafına mane olan problemlərin aradan qaldırılmasına çağırış kimi qeyd edilməlidir.

Sevindirci haldır ki, bütün bu cəhətləri özündə birləşdirən İlham Əliyevin ardıcıl və məqsədyönlü siyasəti sayəsində Azərbaycanın mövqeyi möhkəmlənir ki, beynəlxalq nifuzu gunbəgün artır.

Azərbaycan Prezidenti İlham Əliyevin çoxşaheli fəaliyyətində ölkənin bütün regionlarının ahəngdar inkişafı siyasəti xüsusilə razılıq doğurur.Dövlət başçısın biləvasitə təşəbbüsü ilə hazırlanan "Azərbaycanın regionlarının inkişafına dair Dövlət proqramı"nın müddəaları ilə tanışlıq mütəxəsislərlə yanaşı,sadə,zəhmət adamlarınında da daha da uğurlu sabaha böyük ümid yaradır.

Əlbəttə, həyat yerində durmur qarşımıza yeni-yeni tələblər çıxır.Amma prinsipial istiqamət, ideoloji istiqamət dəyişməz olaraq qalır.Bu ulu öndər Heydər Əliyev fəlsəfəsidir, siyasətidir, ideologiyasıdır və bu sadalananları cənab İlham Əliyev bu gündə həyata keçirir.

# REGİONLARDA BÖYUK CANLANMA



Bu gün ölkənin hər bölgəsində yaşayan insanların sosial rifahının yaxşılaşdırılması,əmək haqlarının,təqaüdlərin ardıcıl sürətdə artırılması,aztəminatlı ailələrə ünvanlı sosial yardımın verilməsi,xüsusi qayğiya daha çox ehtiyacı olanların diqqət mərkəzində saxlanılaraq onlara maddi mənəvi dəstək göstərilməsi və s dövlətin öz vətəndaşlarına göstərdiyi xidmətin bariz nümunəsidir.İşsizliyin aradan qaldırılması yoxsulluğun azaldılması istiqamətində aparılan addımlar da bu siyasətin tərkib hissəsidir.Dövlət başçısı cənab İlham Əliyev " Regionların sosial-iqtisadi inkişafı"(2004-2008). Dövlət Proqramının icrası,yeni iş yerlərinin açılması ilə əlaqədar olaraq qarşiya qoyulmuş vəzifələrin hansı səviyyədə yerinə yetirilməsi, ümumiyyətlə regionlardakı vəziyyətlə tanışlıq məqsədi ilə son 9 ilə yaxın müddət ərzində respublikanın demək olar ki,bütün bölgələrinə səfər etmişdir. Bu edilən səfərlərin nəticəsi olaraq regionlarda böyük canlanma, sürətli inkişaf müşahidə edilir.Hazırda Azərbaycanın hər bir yerində həyatın bütün sahələrini əhatə edən irimiqyaslı işlər görülür.Son illər ərzində ölkədə elm,təhsil,səhiyyə,mədəniyyət, kənd təsərrufatı,sənaye, bir sözlə hər bir sahə surətlə inkişaf etdirilir.Tədii ki,bu həm də, respublikamızın hərtərəfli inkişafı demekdir.

Uğurla həyata keçirilən dövlət siyasətinin əməli nəticələri ölkə vətəndaşlarının hər birinin taleyində olduqca mühüm rol oynayır. Ölkədə əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi üçün ardıcıl işlər həyata keçirilir. Cənab İlham Əliyev hələ 2003-cü ildən dövlət başçısı kimi səlahiyyətlərinin icrasına başladığı ilk gündən bildirmişdir ki,"Azərbaycanda hakimiyyət dəyişib,siyasi kurs olduğu kimi davam etdiriləcək".Nəinki Azərbaycan Respublikasında,eyni zamanda dünya miqyasında da böyük hörmət qazanmış cənab İlham Əliyev yaxşı bilirdi ki,dövlətimizin bundan sonrakı taleyi,yeni-yeni nailiyyətlərin əldə olunması ümumilli lider Heydər Əliyev tərəfindən müəyyən edilmış siyasi kursun hansı səviyyədə həyata keçirilməsindən asılıdır.Buna görə də hakimiyyətdə olan ilk günlərdən cənab İlham Əliyev bu siyasi kursu üstün tutdu və bu yolu layiqincə davam etdirir.Bu səbəbdən ölkə firavan yaşayır,ölkənin beynəlxalq arenada nüfuzu get-gedə möhkəmlənir.Cənab İlham Əliyevində nifuzu günu-gündən artmaqdadır.

# SİYASƏTDƏ QAZANILAN UĞURLAR



Qarabağ problemi təkcə ərazi problemi deyil. Bu problem yüzilliklərlə davam edən bir problemdir. Dağlıq Qarabağ məsələsinin həlli olduqca çətin bir məsələdir. Bu çətinliklərə baxmayaraq Heydər Əliyevin yürütdüyü siyasət, torpaqlarımızın azad olunması məsələsi hələ də gündəmdədir, öz mürəkkəb həllini gözləyir. Bu istiqamətdə sözsüz ki, İlham Əliyevin fəaliyyəti xüsusi olaraq öndə olmalıdır. Avropa Şurası kimi mötəbər təşkilatda ermənilərin ifşa olunması bir daha sübut edir ki, Azərbaycanda gənc siyasətçi nəsli formalaşıb, yetkinləşib. Bu gənc nəslin də başçısı İlham Əliyevdir. "Azərbaycan artıq güclü dövlətdir. Regionda söz sahibi, aparıcı bir dövlətdir. Bunu təkcə biz yox, regionda məşğul olan bütün təşkilatlar, böyük dövlətlərin mötəbər dairələri də təsdiq edir. Azərbaycan bölgədə lider dövlətdir. Bölgədə heç bir məsələ bizim razılığımız olmadan həll edilə bilməz. Bölgələrdə Azərbaycanın iştirakı olmadan belə regonal əməkdaşlıq çərçivəsində heç bir siyasi məsələ həll edilə bilməz. Biz nəinki bütün lahiyələrin iştirakçılarıyıq, eyni zamanda bir çox lahiyələrin təşəbbüskarıyıq. Gündən-günə bizim gücümüz, siyasi aləmdə çəkimiz artır. Bütün bunlardan istifadə edib ölkəni daha da inamla, daha da sürətlə inkişaf etdirmək olar". Bu çıxışları ilə İlham Əiyevin başçılıq etdiyi Azərbaycanın sabahına öz inamını bildirir.

Müdrik siyasəti, geniş dünyagörüşü, iş bacarığı, yorulmaz fəaliyyəti nəticəsində ölkədə sakitliyə, iqtisadi yüksəlişə nail olan ümummilli lider Heydər Əliyev Azərbaycanın sivil dünyaya qovuşması və öz sözünü deyə bilməsi üçün məqsədyönlü işlər görmüşdür. Avropa Şurasına üzv olmaq ölkəmizin həyatında ən əlamətdar hadisəyə çevrildi. Dünyaya Azərbaycan həqiqətləri bu təşkilatdan yayıldı. Nümayəndə heyətinin başçısı İlham Əliyevin ardıcıl mövqeyi, yorulmazlığa əsl siyasətçiyə yaraşan kəskin məntiqi, həqiqətə sadiqliyi Azərbaycan sevərləri heyran etdi, düşmənlərini isə məyus. Dünya da, Avropa da qarşıda gerçək, hər şeyi öyrənmək istəyən zəif dövlət əvəzinə, öz ötkəm səsi, möhkəm iradəsi, inkişafyönümlü dövlət gördülər və onunla hesablaşmağa başladılar. Cənab İlham Əliyevin hakimiyyətə gəlməsi ilə Azərbaycan tarixində yeni mərhələ, yeni səhifə açılmışdır. Prezidentlik fəaliyyətinin icra etdiyi vaxtda İlham Əliyevin siyasətdə qazandığı uğurlar, sözünü demək bacarığı onun beynəlxalq aləmdə nüfuzlu siyasi xadim kimi tanındığını əyani göstərir. İlham Əliyevin Azərbaycan Respublikasına prezident seçildiyi gündən Heydər Əliyev siyasi kursunun inamla davam etdirildiyinin şahidiyik. Bu siyasi kurs Azərbaycanın tərəqqisi, dövlətlər içində dövlət kimi seçilməsini təmin edir. İlham Əliyev çıxışlarının birində götürdüyü estafetin açıqlamasını belə ifadə etmişdir: "Hal-hazırda H.Əliyevin başladığı neft strategiyası uğurla icra olunur. Biz əsas diqqəti siyasi sahələrə, məktəblərin, xəstəxanaların, yeni-yeni iş yerlərinin açılmasına, regionlarımızın inkişafına, digər sosial infrastrukturların yaranmasına yönəltmişik ki, Azərbaycan xalqı, bizim vətəndaşlarımız müsbət dəyişiklikləri öz gündəlik həyatlarında hiss etsinlər".

# QAZANILMIŞ NAİLİYYƏTLƏR



Müasir dövrdə hər bir ölkənin sabit iqtisadi inkişafında sənaye potensialının rolu hədsiz dərəcədə böyükdür. Azərbaycan hazırda inkişafın elə bir mərhələsindədir ki, qazanılan makroiqtisadi nailiyyətlər, ilk növbədə bu sahəyə diqqətin artırılmasını aktual məsələ kimi gündəmə gətirir. Yalnız sənaye sahəsinin inkişaf etdirilməsi yolu ilə gələcəkdə neft hasilatının aşağı düşməsi ilə əlaqədar Azərbaycanın üzləşə biləcəyi maddi itkilərin kompensasiya etmək mümkündür. Ölkə Prezidenti İlham Əliyev məhz bu üzdən sənayenin inkişaf etdirilməsini nəzərdə tutan Dövlət Proqramının hazırlanması üçün aidiyyəti nazirliklərə tapşırıqlar vermişdir. Hər bir ölkədə iqtisadi artım tempinin yüksək olması məhz bu sahədə həyata keçirilən məqsədyönlü tədbirlərin nəticəsidir.

Azərbaycan sənaye ilə yanaşı, kənd təsərrüfatındada müəyyən dirçəliş və artım meylləri özünü göstərir. Əvvələr kənd təsərrüfatında artım bir o qədər də yüksək deyildi. Ancaq reallığa çevrilən kənd təsərrüfatı ilə bağlı lahiyələrin sayəsində artıq yüksək artım tempi müşahidə edilir. Kənd təsərrüfatı mallarının bol olması nəticəsində ölkənin regionlarında bu məhsulların saxlanılması üçün xüsusi saxlama məntəqələri tikilməkdədir. Ölkə Prezidenti İlham Əliyev çıxışlarının birində bildirmişdir ki, "kənd təsərrüfatı ölkə iqtisadiyyatının çox önəmli bir sahəsidir. Eyni zamanda, həm də sosial sahədir. Əhalinin təxminən yarısı kənd şəraitində yaşayır və bu sahəyə biz daim böyük diqqət göstərməliyik. Əməli-praktik tədbirlərin də davam etdirilməsi, əlbəttə ki, bu sahəyə yeni imkanlar gətirəcəkdir".

Hazırda respublikamızın inkişafının elə uğurlu bir mərhələsidir ki, qazanılmış makroiqtisadi nailiyyətlər cəmiyyət həyatının müxtəlif sahələrində sosial tərəqqiyə və intibaha xidmət edən, hər bir ölkə vətəndaşının həyatında kardinal dəyişikliklərlə müşayət olunan, bir sözlə insan inkişafına xidmət edən islahatları yüksək dinamizimlə gerçəkləşdirmək imkanı yaradır. Ölkənin ildən-ilə artan imkanlarını nəzərə alan Prezident cənab İlham Əliyev hesab edir ki, hər bir vətəndaşın firavan həyat səviyyəsini təmin etməyi ali məqsəd kimi qarşıya qoyan hökumət fəaliyyətini yalnız sosial müdafiə tədbirləri ilə məhdudlaşdırmamalıdır. Bunun üçün bu sahəyə lazımı vəsait ayrılmalıdır və İlham Əliyevin göstərişi ilə vəsait ayrılmış, lazımı lahiyələr gerçəkləşmişdir.

# DAİMA İNAMLA İNKİŞAFA DOĞRU



Dahi siyasətçi Heydər Əliyev məktəbinin yetirməsi,onun layiqli davamçısı dövlət başçısı İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti kimi fəaliyyətə başlamasından artıq xeyli vaxt ötür.Əvvəllər olduğu kimi xalqımız və dövlətimiz üçün çox uğurlu olmuşdur.Bu münasibətdə ölkə vətəndaşları prezidentin sayəsində əldə edilən nailiyyətlərdən tam razıdırlar.Cənab prezident yaxşı bilir ki,öz fəaliyyətini dövlətin mənafeyinə yönəltməli,böyük əhəmiyyət kəsb edən milli birliyə nail olmalı,onu göz bəbəyi kimi qorumalı,seperatizimlə mübarizə aparmağa hər bir zaman hazır olmalıdır.Bütün bu amillər ölkə əhalisinin milli mənafeyi,dövlətimizin güclənməsi istiqamətinə yönəldilməlidir.Respublikada baş verən möhtəşəm işlər ölkənin iqtisadi,siyasi,hərbi gücünün durmadan hər an artması,Azərbaycanın siyasi nifuzunun beynəlxalq miqyasda möhkəmlənməsi 15 il ərzində həyata keçirilən uğurlu dövlət siyasəti sayəsində mümkün olmuşdur.İndi Azırbaycan vətəndaşları ölkə rəhbərliyi tərəfindən həyata keçirilən sosial sahədə böyük nailiyyətlər qazanacağına inanır.Daima inkişaf yolunda inamla addımlayan Azərbaycan,ölkə prezidenti İlham Əliyevin inamlı fəaliyyəti sayəsində Cənubi Qafqaz regionunda lider bir dövlətə çevrilmişdir.Cənab İlham Əliyev özünü müdrik rəhbərliyi ilə Azırbaycan firavanlığı və tərəqqiyə gedən yolda nailiyyətlərinə xalqımız əmindir. 2013-cü il prezident seçkilərində İlham Əliyevin xalqın yeganə namizədi olduğundan xalq ona sonsuz ümidlərlə səs verdi.Dövlət başçısının andiçmə mərasimindən sonrakı fəaliyyətinin ümumi müddəaları dolğun şəkildə görülən işlərdə öz əksini tapmışdır.Həmin müddəaların qısa zaman kəsiyində reallığa çevrilməsi isə xalq qarşısında verilmiş sözə əsil sadiqlik nümunəsidir.Azərbaycan prezidentinin məqsədyönlü fəaliyyəti nəticəsində ilk növbədə,Azərbaycanın qüdrətli dövlətə çevrilməsi yolunda son dərəcə mühüm amil olan ictimai-sabitlik qorunub saxlanımışdır. Ölkəmizin gələcəyi inamlı əllərdədir,azərbaycanlılar Prezident İlham Əliyevə özü qədər inanır,onunla birlikdə çiçəklənən Azərbaycanın işıqlı sabahına inamla addımlayır.Xalq ümüdvardır ki,ölkədə hələ də həll olunmayan problemlər mövcuddur və bunların hər biri İlham Əliyevin sayəsində öz həllini tapacaqdır.

# ABADLIQ VƏ QURUCULUQ İŞLƏRİ

Möhtərəm Prezident cənab İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə son 15 ildə çoxlu sayda irimiqyaslı lahiyələr,sosial-iqtisadi tədbirlər həyata keçirilmişdir. İndiyə qədər 9 yüz mindən artıq iş yerinin açılması, yoxsulluq səviyyəsinin əhəmiyyətli dərəcədə azalması, məcburi qaçqın və köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması ölkəmizin sosial-iqtisadi inkişafının mühüm göstəricilərindəndir.Möhtərəm prezident sosial problemlerin həllinin prioritet məsələ olduğunu dəfələrlə bəyan edərək onların həlli istiqamətində ardıcıl tədbirlər həyata keçirir.Ölkənin regionlarinda əhalinin həyat və yaşayış səviyyəsinin yüksəldilməsi məqsədilə çox böyük işlər həyata keçirilir.Yeni məktəblər,tibb müəssisələri, idman kompleksləri inşa edilir,beynəlxalq standartlara cavab verən yollar çəkilir, abadlıq və quruculuq içləri aparılır ən başlıcası Azərbaycan Respublikası dövlət büdcəsi surətlə artır.

Dövlət başçısı cənab İlham Əliyevin uğurlu xarici siyasəti,iqtisadi,siyasi enerji nəqliyyat,mədəniyyət sahəsindəki təşəbbüsləri Azərbaycanı regionda güclü bir mərkəzə çevirir.Artıq beynəlxalq aləm əmin olmuşdur ki,Azərbaycanın iştirakı və razılığı olmadan bölgədə heç bir lahiyə həyata keçirilə bilməz,heç bir məsələ həll edilə bilməz.

Azərbaycan indi inkişafın elə yüksək bir mərhələsindədir ki,qazanılan mikroiqtisadi nailiyyətlər ilk növbədə bu sahəyə diqqətin artırılması aktual məsələ kimi gündəmə gətirilir.Yalnız sanayenin inkişaf etdirilməsi yolu ilə əlaqədar Azərbaycanın üzləşə biləcəyi maddi itkiləri kompensasiya etmək mümkündür. Prezident İlham Əliyev məhz bu reallıqdan çıxış edərək sənayenin inkişafını nəzərdə tutan Dövlət proqramının hazırlananması üçün aidiyyatı nazirliklərə tapşırıq verilmişdir.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağın həlli istiqamətində möhtərəm prezidentimizin apardığı məqsədyönlü siyasət milli mənafeyimizə,xalqımızın istək və arzularına cavab verir.İnamla demək olar ki, ölkənin müdafiə qüdrətinin artırılması,silahlı qüvvələrimizin döyüş qabiliyyətinin yüksəldilməsi və maddi texniki bazanın müasir standartlar səviyyəsinə qaldırılması sayəsində torpaqlarımızın işğalına tezliklə son qoyulacaqdır. Cənab İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi andan bəri hər il hərbiyə ayrılan vəsait get gedə artır və özünün də dediy kimi Azərbaycanın hərbiyə ayırdığı pul Ermənistanın dövlət büdcəsinə bərabər olacaqdır.Bununla yanaşı Azərbaycanda hərbi sahə daha yüksək inkişaf səviyyəsinə çatdırılmış və istənilən an işğal olunmuş topaqları azad etməyə qadirdir.



# DÖVLƏT QARŞISINDA XİDMƏTLƏR



Cənab İlham Əliyev partiya quruculuğu sahəsində həyata keçirdiyi siyasəti də uğurla davam etdirməkdədir. Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini kimi partiyanın idarə heyəti üzvləri ilə keçirdiyi ilk görüşündə cənab prezident bu istiqamətdə Heydər Əliyev kursuna sadiq qalacağını bəyan etmişdir: "Yeni Azərbaycan partiyası güclü təşkilatdır və Azərbaycanın ictimai-siyasi həyatında müstəsna rola malikdir. Heç bir siyasi qüvvə Yeni Azərbaycan Partiyası ilə rəqabət aparmaq iqtidarında deyil. Bu partiyaya mənim də münasibətim eynidir. Mən öz siyasi fəaliyyətimi partiyasız təsəvvür etmirəm. Əminəm ki, biz hamımız birlikdə həm partiyamızı daha da gücləndirəcəyik, həm də ölkəmizi daha da inkişaf etdirəcəyik. Azərbaycan müasirləşəcək, güclənəcək, çox zəngin, qüdrətli dövlətə çevriləcəkdir. Buna tam əmin ola bilərsiz!".

Bu faktın özü də adı ümummilli lider Heydər Əliyevin adı ilə simvollaşan Yeni Azərbaycan Partiyasının xalqın partiyası olduğunu əyani göstərir. Bu gün Yeni Azərbaycan Partiyası da ölkədə həyata keçirilən hüquqi dövlət vətəndaş cəmiyyəti quruculuğu, demokratik inkişaf prosesində yaxından iştirak edir, müstəqil Azərbaycan dövlətinin yüksəlişinə, tərəqqisinə, inkişafına öz töhvəsini əsirgəmir.

Hüquqi dövlət quruculuğu prosesini uğurla davam etdirən cənab İlham Əliyev Azərbaycanı keyfiyyətcə yeni mərhələdə uğurlu inkişaf yoluna çıxarmışdır. Ölkə başçısı cənab İlham Əliyev prezidentlik fəaliyyəti dövründə xalqın ona göstərdiyi etmadı layiqincə doğruldaraq ulu öndər Heydər Əliyev siyasi kursunun alternativsizliyini əməli işləri ilə bir daha yerinə yetirmişdir. Bu qısa zaman kəsiyində Azərbaycanın beynəlxalq aləmdə rolu və yeri daha da möhkəmlənmişdir. Dünyanın diqqəti qarşılaşdığımız ən böyük problem, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindədir. Xalq inanır ki, bu problem İlham Əliyevin Ali Baş Komandan kimi qarşısında birinci dərəcəli vəzifədir ki, torpaqlarımız işğaldan azad olunsun, qaçqın və məcbiri köçkünlər öz ata-baba yurdlarına qayıtsınlar. O gün uzaqda deyil.

Ulu öndər Heydər Əliyevin "Dünənin, bu günün, gələcəyin partiyası" deyə həm keçmişini, həm gələcəyini müəyyən etdiyi Yeni Azərbaycan Partiyasını xalq, dövlət qarşısındakı xidmətləri bu təşkilatın cəmiyyətdəki mövqeyini get-gedə daha da möhkəmləndirir, xalqın bu partiyanın ideoloji-siyasi xəttində dəstəyini gücləndir.

# Prezident İlham Əliyevin yürütdüyü uğurlu daxili və xarici siyasət

Cənab İlham Əliyev özünün 15 illik prezidentliyi dövründə, ilk növbədə,ümummilli lider Heydər Əliyev tərəfindən təməli qoyulmuş vətəndaş birliyi platformasına söykənərək daxili ictimai-siyasi sabitliyi daha da möhkəmlətmiş, əhalinin təhlükəsizliyini, insanların əsas hüquq və azadlıqlarını, ölkənin əmin-amanlığını təmin etmiş, vətəndaşların rifah halının getdikcə yüksəlməsinə nail olmuşdur. Hazırda tərəddüd etmədən söyləmək olar ki, daxili milli-vətəndaş birliyi, hakimiyyətin yürütdüyü siyasətin geniş əhali tərəfindən dəstəkləməsi əsasında bərqərar olmuş möhkəm ictimai-siyasi sabitlik əmsalına görə Azərbaycan postsovet məkanında birinci yerdə dayanır. Bununla yanaşı, digər əsas daxili inkişaf parametrləri - makroiqtisadi sabitlik, dinamik inkişaf edən iqtisadiyyat, sosial və mənəvi təminat sisteminin dinamikası, müsbət demoqrafik vəziyyət, miqrasiya və urbanizasiya proseslərinin dövlətin nəzarəti altında saxlanması, dövlət idarəçiliyinin effektivliyi və s. üzrə də Azərbaycan son 15 ildə region ölkələri içərisində birinci üçlükdə öz yerini möhkəmləndirmişdir.



Prezident İlham Əliyevin yürütdüyü uğurlu daxili və xarici siyasət, formalaşdırdığı səmərəli dövlət idarəçiliyi sayəsində son 15 ildə Azərbaycanın regional və beynəlxalq nüfuzu getdikcə artmış, Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazdakı geosiyasi, geoiqtisadi və hərbi-geostrateji mövqeləri daha da güclənmişdir. Ölkənin təbii ehtiyatlarından, coğrafi mövqeyindən, maddi, mənəvi və insan resurslarından səmərəli istifadəyə, transmilli nəqliyyat-kommunikasiya və enerji dəhlizləri sahəsində həyata keçirilən uğurlu regional siyasət və düzgün mövqe seçiminə, daxili və xarici siyasətin müstəqillik əmsalına, sosial-iqtisadi inkişafın davamlılıq və dinamiklik göstəricilərinə, gələcək inkişaf potensialına və digər parametrlərinə görə də hazırda Azərbaycan regionun özünü tam təmin edən dövlətləri sırasında ilk üçlükdə qərarlaşmışdır.

Ayrı-ayrı sahələr üzrə təhlil aparsaq görərik ki, son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda demokratik təsisatların möhkəmləndirilməsi, siyasi plüralizmin, insan hüquq və azadlıqlarının təmin edilməsi, vətəndaş cəmiyyəti institutlarının gücləndirilməsi istiqamətində ardıcıl siyasət həyata keçirilmişdir. Məhz bunun nəticəsidir ki, hazırda ölkədə 55 siyasi partiya, 3 mindən çox qeyri-hökumət təşkilatı (4 mindən çox qeyri-kommersiya təşkilatı), 5 mindən çox kütləvi informasiya vasitəsi, habelə sıralarında 2 milyona yaxın insanı birləşdirən həmkarlar ittifaqları sərbəst fəaliyyət göstərir.

# Vaqif Ədilov

*Mənim ümmətimdən hər bir ağıl sahibinə bu dörd şey vacibdir: elmi eşitmək, onu öyrənmək, yaymaq və ona əməl etmək.*
*(Hz.Muhəmməd s.ə.v.)*



Elmin insan həyatının çiçəklənməsində müstəsna rolu vardır. Elmi nailiyyətlər nəticəsində bəşər həyatı daha da gözəlləşməyə doğru irəliləməkdədir. Elm zülmətdən işıqlığa və səadət nuruna yetişməkdə bəlkə də yeganə vasitədir. Hər bir cəmiyyətin həyat səviyyəsinin yüksəlişi, tərəqqisi, həmin toplumda elmin inkişafından, elmə marağın hansı səviyyədə olmasından və daha bir çox elmlə bağlı ünsürlərin həmin cəmiyyətdə olub-olmamasından asılıdır. Cəhalət və savadsızlığın hakim olduğu bir təbəqə və cəmiyyət sonunda süquta məhkumdur. Bizim gələcəyimiz gənclərimizdən asılıdır. Bu gənclərdən biri də Vaqifdir.

Ədilov Vaqif Zöhrab oğlu 29 noyabr 2009-cu ildə Bakı şəhərində anadan olub. O, birinci sinifə 2016-cı ildə getmiş, 297 nömrəli məktəbdə təhsilinə başlamışdır. Hal-hazırda həmin məktəbin 3-cü sinifində oxuyur. Vaqif dərsləri yaxşı oxuyur və göstərdiyi fəallığı ilə öz sinif yoldaşlarından fərqlənir. O, istər savadı, istərsə də tərbiyəsi ilə qısa zamanda hamının sevimlisinə çevrilmişdir. Onun ən çox sevdiyi fənn Ana dili, ən sevdiyi müəlliməsi isə Mətanət müəllimədir. Dərslərində göstərdiyi fəallığına görə fəxri fərmanla mükafatlandırılmışdır. O, boş zamanlarında dərsləri ilə məşğul olmaqla yanaşı, rəsm çəkir və kitab oxuyur. Bununla da o bir yandan öz təfəkkürünü inkişaf etdirir.

Atası Ədilov Zöhrab Qabil oğlu dəmir yolunda işləyir. Anası Ədilova Şəfəq Vaqif qızı evdar xanımdır. Bacıları Ədilova Çiçək 8-ci sinifdə oxuyur, Ədilova Almara 5-ci sinifdə oxuyur, Ədilova Mələk isə balacadır.

Biz kollektivimiz adından Vaqifə gələcək həyatında uğurlar arzu edirik. Səsin hər zaman yüksəklərdən gəlsin!

# Ali Baş Komandan İlham ƏLİYEV:

# Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır



100 il əvvəl Azərbaycanın dövlətçilik tarixində mühüm rol oynayan milli ordu quruculuğu siyasətinin əsasının qoyulması xalqa göstərilən ən böyük xidmətlərdən sayılır. Dövrün ağır şərtləri daxilində dövlətin və onun nizami ordusunun formalaşdırılması xalqımıza və milli-mənəvi dəyərlərimizə verilən qiymətin təzahür forması idi.

1918-ci il iyunun 26-da ilk hərbi hissənin - əlahiddə korpusun yaradılması haqqında qərar Demokratik Cümhuriyyətin öz ordusunu formalaşdırması sahəsində israrlı olduğunu ortaya qoydu və Azərbaycanda ordu quruculuğu istiqamətində əsaslı nəticələr əldə olunmasına səbəb oldu.

Bu addım xalqımızın dövlətçilik tarixində özünəməxsus yer tutan Azərbaycan Xalq Cümhuriyyətinin ən böyük xidmətlərindən biri kimi tarixləşdi. Gənc Demokratik Cümhuriyyətin yaradıcıları milli dövlətçiliyimizi qorumaq, ölkəni xarici müdaxilələrdən müdafiə etmək, daxili düşmən qüvvələrini zərərsizləşdirmək üçün özünün silahlı qüvvələrini yaratmaqla, milli dövlətçiliyimiz yolunda ölçüyəgəlməz, qarşısıalınmaz bir prosesə başladılar.

Xalq Cümhuriyyətinin devrilməsi nəticəsində ordu quruculuğu prosesi müəyyən bir zaman kəsiyində yarımçıq qaldı. Lakin 1969-cu ildə Azərbaycanın rəhbəri seçilən ümummilli lider Heydər Əliyev bu prosesin qarşısıalınmaz olduğunu bir daha sübut etdi. Ulu öndər Heydər Əliyevin respublikaya rəhbər seçilməsi ilə hərbi kadr sahəsində atdığı addımlar, Cəmşid Naxçıvanski adına hərbi təmayüllü ixtisaslaşdırılmış orta məktəbin əsasının qoyulması, azərbaycanlıların hərbi məktəblərə daxil olmasının təmin edilməsi, milli zabit kadrlarımızın vəzifələrə irəli çəkilməsi Azərbaycanın hərb tarixində yeni bir mərhələnin əsasını qoydu.

Ümummilli Lider tərəfindən ordu quruculuğu sahəsində milli maraqlarımızın qorunaraq, inkişaf etdirilməsi istiqamətində atılan tarixi addımlar sonradan müstəqil Azərbaycanda mərkəzləşdirilmiş nizami ordunun yaranmasına təkan oldu.

Ümummilli liderimiz Heydər Əliyevin xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdışı bütün sahələrdə, o cümlədən ordu quruculuğu istiqamətində aparılan siyasətin davam etdirilməsinə şərait yaratdı. Ulu Öndərin vahid komandanlığın təmin edilməsi sahəsində gördüyü məqsədyönlü tədbirlər nizami ordunun formalaşmasına səbəb olmaqla yanaşı, Azərbaycan üçün həyati əhəmiyyət kəsb edən atəşkəsə də gətirib çıxartdı. Nəticədə mərkəzləşmiş maddi-texniki təminat işində uğurlu addımlar atıldı, müxtəlif qoşun növlərinin, ayrı-ayrı hərbi hissələrin təminatı həyata keçirilməklə formalaşması başa çatdırıldı, fərarilik hallarının qarşısı alındı, orduya çağırış işi təkmilləşdirildi, şəxsi heyətin mənəvi-psixoloji hazırlığına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırıldı, hərbi vətənpərvərlik tərbiyəsi gücləndirildi.

Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə dövlət və ordu quruculuğu istiqamətində taleyüklü addımlar atıldı və Azərbaycan Ordusu elmi-nəzəri əsaslar üzərində qurulmağa başladı. Dahi rəhbər Heydər Əliyev güclü və intizamlı ordunun yaradılmasının, həm də yüksək ixtisaslı milli zabit kadrların mövcudluğundan asılı olduğunu nəzərə alaraq Hərbi Akademiyanı yaratdı, Ali Hərbi Dənizçilik və Ali Hərbi Təyyarəçilik Məktəblərini formalaşdırdı.

Vətənimizin qorunmasının, işğal altında olan torpaqlarımızın azad olunmasının başlıca amilini ordumuzun daha da möhkəmləndirilməsində görən Ulu Öndər tez-tez səngərlərdə oldu, əsgər və zabitlərlə şəxsən görüşdü, ölkənin müdafiə qüdrətini və hərbi potensialını artırmaq üçün ciddi addımlar atdı.

Ulu öndər Heydər Əliyevin qətiyyətinin və böyük sərkərdəlik məharətinin nəticəsi idi ki, Azərbaycanın hərb tarixinə qızıl hərflərlə yazılan Horadiz əməliyyatı baş tutdu və 21 min hektar ərazi - Füzuli rayonunun 20 Arazboyu kəndi, Horadiz qəsəbəsi və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi işğaldan azad edildi.

Bütün bunlar sübut edir ki, bu gün Azərbaycanın qüdrətli və

nizami orduya malik olması məhz ümummilli lider Heydər Əliyevin gərgin zəhmətinin bəhrəsidir.

Ümummilli lider Heydər Əliyevin ordu quruculuğu ilə bağlı başladığı işlər onun siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycanın bütün strateji əhəmiyyətli sahələrində dinamik inkişafa yol açan ardıcıl və sistemli islahatlar həyata keçirən dövlət başçısı ordu quruculuğuna da xüsusi diqqətlə yanaşır. Milli Ordunun müdafiə qüdrətinin və döyüş qabiliyyətinin artırılması, maddi-texniki təchizatının yaxşılaşdırılması, o cümlədən hərbi qulluqçuların sosial müdafiəsi tədbirlərinin gücləndirilməsi bu siyasətin prioritet istiqamətləri kimi diqqəti çəkir. Prezidentimizin ən böyük xidmətlərindən biri də ondan ibarətdir ki, bu gün Azərbaycan Ordusunun şəxsi heyətinin mənəvi-psixoloji durumu yüksək səviyyədədir. Məhz bunun nəticəsidir ki, hazırda Azərbaycan möhkəm nizam-intizamı, yüksək döyüş ruhu ilə seçilən, düşmənə sarsıdıcı zərbə vurmağa qadir olan bir ordusu ilə fəxr edir.

Prezident, Ali Baş Komandan İlham Əliyevin hərbi hissələrə, xüsusən cəbhə xəttinə ardıcıl səfərləri ordumuzun gücünü artıran, hərbçilərimizin döyüş əhval-ruhiyyəsini yüksəldən amillər sırasındadır. Ön xətdə xidmət edən şəxsi heyətə mübarizə əzmi aşılamaqla Ali Baş Komandan bir daha orduya diqqət və qayğısını əsirgəmədiyini nümayiş etdirir. Prezident İlham Əliyev çıxışlarında dəfələrlə vurğulayıb ki, erməni işğalının və müharibə vəziyyətinin davam etdiyini nəzərə alaraq bizim qarşımızda duran əsas vəzifə hərbi kadrların peşəkarlıq səviyyəsini artırmaq, müdafiə potensialını möhkəmləndirmək, ordumuzun gücünü və hərbi qüdrətini daima yüksəltməkdir. Bu isə Azərbaycan Ordusunun torpaqlarımızı işğaldan azad etməsi üçün başlıca şərtdir.

Müasir ordu quruculuğunu xarakterizə edən, milli ordumuzun möhkəmlənməsinə geniş imkanlar yaradan əsas amil dinamik iqtisadi inkişaf və ölkəmizin iqtisadi qüdrətinin artmasıdır. İqtisadi inkişaf ordumuzun bütün istiqamətlər üzrə potensialının yüksək səviyyəyə çatdırılmasına və Azərbaycanda hərbi-sənaye potensialının gücləndirilməsinə geniş imkanlar yaradır.

Ali Baş Komandan İlham Əliyevin apardığı ardıcıl siyasətin, diqqət və qayğısının məntiqi nəticəsidir ki, Azərbaycan Ordusu müasir silah-sursat, döyüş texnikası, onların keyfiyyəti, şəxsi heyətin sayı və döyüş əzmi baxımından düşmən ordusunu dəfələrlə qabaqlayır və ordumuz dünyanın aparıcı 50 ordusu sırasındadır. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə Heydər Əliyev Mərkəzində təşkil edilən rəsmi qəbulda çıxış edən Prezident İlham Əliyev qazanılan uğuru müstəqillik dövrünün ən böyük nailiyyətlərindən biri hesab etdi: "1918-ci ildə Azərbaycan Ordusunun yaradılması haqqında qərar veriləndə, yəqin ki, Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları heç təsəvvür edə bilməzdilər ki, bu gün Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasında olacaq. Bizim ordumuzun həm maddi-texniki təchizatı, həm də döyüş qabiliyyəti ən yüksək səviyyədədir. Biz bunu döyüş meydanında sübut edə bilmişik. Azərbaycan Ordusu işğal altında olan torpaqların bir hissəsini iki il bundan əvvəl işğalçılardan azad etmişdir. Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsi işğalçılardan azad edildi. Azad edilmiş o torpaqlara Azərbaycan vətəndaşları qayıtmışlar. O torpaqlara həyat qayıtmışdır və bunu Azərbaycan dövləti etdi, Azərbaycan Ordusu etdi. Güclü ordu müstəqilliyimizin əsasıdır, təhlükəsizliyimizin qarantıdır. Azərbaycanda təhlükəsizlik tam təmin edilibdir. Azərbaycan bu gün müstəqil ölkə kimi dünya miqyasında ən sabit ölkələrdən biridir". Prezident qeyd etdi ki, bu gün müstəqil Azərbaycan hər bir Azərbaycan vətəndaşı üçün qürur mənbəyidir: "Biz Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının arzularını reallığa çevirdik. Biz elə bir dövlət qurduq ki, əminəm, hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı bu dövlətlə fəxr edir. Mən tam əminəm ki, əgər Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları bugünkü Azərbaycanı görə bilsəydilər, onlar da ölkəmizlə fəxr edərdilər".

Bəli, 100 yaşlı Azərbaycan dövləti və Azərbaycan Ordusu Prezident, Ali Baş Komandan İlham Əliyevin fəaliyyəti nəticəsində fəxr ediləsi, qürur duyulası bir səviyyədədi və həyatının ikinci yüzilliyinə ciddi uğurlarla qədəm qoyur. Bu uğurlar dövlətimiz və dövlətçiliyimiz naminə görülən işlərin davamı, gələcək nailiyyətlərin isə başlanğıcıdır.

Azərbaycan Ordusunun yaranmasının 100 illiyi münasibəti ilə keçirilən parad isə qazanılan uğurların təsdiqi olacaq. Bu paraddan sonra müasir Azərbaycan Ordusunun indiki vəziyyətini, döyüş qabiliyyətini daha aydın təsəvvür etmək mümkün olacaq. Böyük iqtisadi və siyasi əhəmiyyət kəsb edən bu parad sübut edəcək ki, Azərbaycan Ordusu güclüdür, qüdrətlidir, torpaqlarını qorumağa və işğaldan azad etməyə qadirdir. Ən əsası sübut edəcək ki, qüdrətli ordusu olan ölkə məğlubiyyətlə barışmayacaq. Tezliklə qələbələri sıralayacaq və növbəti paradın işğaldan azad edilmiş Qarabağda keçirilməsinə nail olacaq!







*Sumuq qala, Qax rayonu, İlisu kəndi*

**2013-cü ildən nəşr olunan “Təhsil yenilikləri” qəzeti və eyni adda xüsusi buraxılış jurnalı əsasən dövlət və dövlətçiliyi təbliğ edir, daha çox təhsil və bu sahədəki yeniliklər haqqında məlumat verir.**

**Xüsusi buraxılış olan jurnalda arzu edən şəxslər, xüsusilə qabaqcıl ziyalılar, müəllimlər, həkimlər, tələbələr, şagirdlər və qeyri ixtisas sahibləri, həmçinin yüksək bal toplayan məzunlar, idmançılar, maraqlı əl işləri olan gənclər, səs qabiliyyəti, şeir yazmaq və demək bacarığı olan şagirdlər də çıxış edə bilər.**

**Jurnal Şəhid övladlarına, fiziki və əqli qüsurlu, hər iki valideynini itirən şagirdlərə pulsuzdur.**


tehsil_news@mail.ru

tehsil_yenilikleri

Tehsil Yenilikleri

Təhsil Yenilikləri